**Demokratik Təsisatlar və İnsan Haqları Bürosu**

# AZƏRBAYCAN RESPUBLİKASI

## NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ
## 11 aprel 2018

### DTİHB-nun Seçki Müşahidə Missiyası
### Yekun Hesabat

**Varşava**
**18 iyul 2018**

# MÜNDƏRİCAT


**I. QISA İCMAL** .......... **1**

**II. GİRİŞ SÖZÜ VƏ MİNNƏTDARLIQ** .......... **4**

**III. ÜMUMİ MƏLUMAT VƏ SİYASİ KONTEKST** .......... **4**

**IV. HÜQUQİ ÇƏRÇİVƏ VƏ SEÇKİ SİSTEMİ** .......... **6**

**V. SEÇKİ ADMİNİSTRASİYASI** .......... **7**

**VI. SEÇİCİ QEYDİYYATI** .......... **9**

**VII. NAMİZƏDLƏRİN QEYDİYYATI** .......... **11**

**VIII. SEÇKİ KAMPANİYASI** .......... **13**

**IX. KAMPANİYANIN MALİYYƏLƏŞDİRİLMƏSİ** .......... **15**

**X. MEDİA** .......... **16**

A. MEDIA MÜHITI VƏ HÜQUQI ÇƏRÇIVƏ .......... 16
B. SEÇKI KAMPANIYASININ IŞIQLANDIRILMASI .......... 18

**XI. YERLİ VƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR** .......... **19**

**XII. ŞİKAYƏTLƏR VƏ APELYASİYALAR** .......... **20**

**XIII. SEÇKİ GÜNÜ** .......... **21**

A. AÇILIŞ VƏ SƏSVERMƏ .......... 21
B. SƏSLƏRİN SAYILMASI .......... 23
C. NƏTİCƏLƏRİN TABULYASİYASI .......... 24

**XIV. SEÇKİSONRASI PROSESLƏR** .......... **24**

**XV. TÖVSİYYƏLƏR** .......... **25**

A. PRİORİTET TÖVSİYYƏLƏR .......... 25
B. DİGƏR TÖVSİYYƏLƏR .......... 26

**ƏLAVƏ 1 – YEKUN SEÇKI NƏTICƏLƏRI VƏ SEÇICI IŞTIRAKI** .......... **29**

**ATƏT / DTİHB HAQQINDA** .......... **30**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ**
**11 aprel 2018**

**DTİHB-nun Seçki Müşahidə Missiyasının Yekun Hesabatı**[1]

# I. QISA İCMAL

Azərbaycan Respublikasının Hökumətinin dəvəti ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) 11 aprel növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün 9 mart 2018-ci il tarixində Seçki Müşahidə Missiyasını yaratmışdı. DTİHB SMM seçki prosesinin ATƏT qarşısında götürülmüş öhdəliklərə və demokratik seçkilərə dair digər beynəlxalq öhdəlik və standartlara və yerli qanunvericiliyə uyğunluğunu qiymətləndirmişdir. Seçki günü DTİHB SMM və ATƏT-in Parlament Assambleyasının və Avropa Şurasının Parlament Assambleyasının nümayəndə heyətlərinin birgə səyləri ilə Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) təşkil olunmuşdur. DTİHB SMM seçkisonrası prosesləri izləmək üçün aprel aının 21-ə kimi ölkdə qalmışdır.

12 aprel tarixində BSMM tərəfindən dərc olunmuş İlkin Faktlar və Nəticələr haqqında Bəyanatda qeyd olunmuşdur ki, seçki "dar siyasi mühitdə və həqiqi demokratik seçkilər üçün ilkin şərt hesab edilən əsas hüquqlar və azadlıqları məhdudlaşdıran qanunvericilik əsasında keçirilmişdir. Bu əsasda və həmçinin mediada plüralizmin olmadığı şəraitdə keçirilmiş bu seçkidə həqiqi rəqabət olmamışdır. Digər namizədlər vəzifədə olan prezidentə qarşı çıxış etməkdən və onu tənqid etməkdən çəkinmişdir və onun kampaniyası ilə rəsmi fəaliyyətləri arasında heç bir fərq qoyulmamışdır. Eyni zamanda səlahiyyətli orqanlar əməkdaşlığa açıq olmuşlar və beynəlxalq müşahidəçilər seçkilərdən əvvəlki dövrdə azad şəkildə fəaliyyət göstərə bilmişlər. Seçki administrasiyası yaxşı təmin olunmuş və seçkiləri effektiv təşkil etmişdir. Seçki günü beynəlxalq müşahidəçilər icbari prosedurların geniş miqyasda nəzərə alınmaması, şəffaflığın olmaması və seçki qutularına topa halda bülletenlərin atılması kimi çox sayda ciddi pozuntu faktları haqqında məlumat vermişlər"

Bu, prezidentin səlahiyyətlərini daha da artıran son konstitusiya düzəlişlərinin edilməsindən sonra keçirilən ilk president seçkisi olmuşdur. Seçkilər sədri Prezident İlham Əliyevin dördüncü ardıcıl müddətə namizədliyi irəli sürülmüş hakim Yeni Azərbaycan Partiyasının (YAP) ciddi şəkildə üstün olduğu bir mühitdə keçirilmişdir. Bir neçə müxalifət partiyası faktiki olaraq rəqabət mühitinin olmamasını əsas gətirərək seçkiləri boykot etsə də, digər partiyalar namizədlərini irəli sürməmiş və bildirmişlər ki, bu seçkilərdə əhəmiyyətli iştirak etmək üçün növbədənkənar seçki tarixinə qədər olan müddət yetərincə deyildir.

Konstitusiya ilə əsas hüquqlar və azadlıqlar təmin olunur. Bununla belə, bu şərti təminatlar Avropa İnsan Hüquqlar Məhkəməsi tərəfindən də qeyd edildiyi kimi hüquqi və inzibati məhdudiyyətlərə məruz qalmışdır. Seçki Məcəlləsi müfəssəldir və yaxşı tərtib olunmuşdur, lakin Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən verilən yardımçı təlimatlar seçkilərin bütün prosedur aspektlərini əhatə etməmşdir. DTİHB-nin bir neçə əvvəlki tövsiyyələrinin qismən nəzərə alınmasına baxmayaraq, DTİHB-nun prioritet tövsiyyələrindən heç biri yerinə yetirilməmişdir.

Seçkilər MSK, 125 Dairə Seçki Komissiyası (DSK) və təxminən 5,400 Məntəqə Seçki Komissiyası tərəfindən həyata keçirilmişdir. Seçki administrasiyası yüksək təşkil olunmaqla və yaxşı təmin edilməklə seçkiləri qanuni müddətlərdə keçirmişdir. Seçki komissiyalarını təyin etmək qaydası təcrübədə seçkinin qərəzsiz keçirilməsini təmin etmir, çünki seçki komissiyalarına namizəd irəli sürmüş parlamentdəki üç qrup arasında heç bir siyasi fərq yoxdur. Komissiya sədrləri qanunla parlamentdə əksəriyyəti təmsil edir.

---

1 Bu hesabatın İngilis dili nüsxəsi yeganə rəsmi sənəd hesab olunur. Azərbaycan dilinə qeyri-rəsmi tərcümə olunub.

MSK ictimai iclaslar keçirmişdir ki, bu iclaslarda da üzvlərin əksəriyyəti ya müzakirələrdə iştirak etməmiş, ya da heç bir müxalif və ya mübahisəli fikirlər səsləndirilməmişdir. MSK və DSK-lar tərəfindən həqiqi qərar qəbuletmə prosesi tam şəffaf olmamışdır. Müşahidə aparılmış iclaslar yalnız qərarların yekdil səslə təsdiq olunmasına xidmət etmişdir. MnSK-nın keçirdiyi iclaslar əsasən xüsusi əsaslarda çağrılmışdır. Ümumiyyətlə, seçki administrasiyası hökumətdən müstəqil olmadığını açıq-aydın nümayiş etdirmişdir.

MSK-da saxlanan daimi seçici reyestrində təxminən 5.2 milyon seçici qeydiyyata alınmışdır. Seçki administrasiyası seçici siyahılarını yeniləmək üçün çox səylər göstərmiş və seçicilər bu siyahılard özləri haqqında məlumatları yoxlamaq üçün geniş imkanlar ilə təmin olunmuşdular. Dövlət orqanları tərəfindən təqdim olunan məlumatlar onu göstərir ki, seçici siyahılarında olan seçicilərin sayı səsvermə yaşında olan vətəndaşların təxmini sayından təqribən iki milyon nəfər azdır. Bu boşluğu izah edəcək ictimai məlumatların olmaması rəqəmlərin dəqiqliyi ilə bağlı suallar doğurur. Məhkəmə qərarı ilə fəaliyyət qabiliyyətsizliyi bəyan olunmuş şəxslərin beynəlxalq standartlara zidd olaraq, səs vermək hüququ yoxdur.

MSK yeddi namizədi qeydiyyata almışdır. Komissiya namizədliyi irəli sürülmüş iki nəfəri qeydiyyata almaqdan imtina etmiş və bunu onların lazımi qədər dəstəkləyici imzalarının olmaması ilə əsaslandırmışdır. Dəstəkləyici imzaların yoxlanması MSK-nın işçi qrupu (İQ) tərəfindən keçirilmişdir və bu proses imza qeydlərinin etibarlılığının və şübhəli təkrarlanan imzaların vizual yoxlanmasından ibarət olmuşdur. İQ prosesin texniki cəhətdən adekvat və izlənə bilən olduğunu aydın şəkildə göstərə bilməmişdir. İQ-nun təqdim etdiyi məlumatlar namizəd olmaq hüququ ilə bağlı ATƏT qarşısında götürülmüş öhdəliklərin qanunla qorunmasını və onların təcrübədə yerinə yetirilməsini şübhə altına alır.

Seçki kampaniası məhdud ictimai maraq doğurmuşdur. YAP vəzifədə olan prezidentin adından yaxşı təşkil olunmuş və maliyyələşdirilmiş kampaniya keçirmişdir. Vəzifədə olan prezident kampaniyada iştirak etməsə də, o, rəsmi vəzifələrinin icrasına davam etmiş, ölkə üzrə çoxlu səfərlər etmiş və həmçinin bir çox yüksək səviyyəli beynəlxalq nümayəndələri qəbul etmişdir. Digər yeddi namizədin kampaniyaları vəsait çatışmazlığının səbəb olduğu əngəllərlə keçirilmişdir. Bu seçkilərdə namizədlər arasında bir-birinə qarşı əsl müxalif mövqe nümaiş etdiən heç bir ciddi rəqabət olmamışdır. DTİHB SMM yeddi digər namizəddən hər hansı birinin prezidenti açıq şəkildə tənqid etdiyini müşahidə etməmiş və hətta bu namizədlərin vəzifədə olan prezidenti konkret dəstəklədiyi bir sıra halların olduğunu qeyd etmişdir.

YAP tərəfindən keçirilmiş kampaniyalar üçün inzibati resurslardan sui-istifadə halları ilə bağlı əsaslı iddiaların səsləndirilməsi prosesə inamı azaltmışdır. DTİHB SMM vəzifədə olan prezidentin kampaniyası üçün YAP strukturlarının inzibati resurslardan sui-istifadə hallarının, dövlət sektoru əməkdaşlarının və ya universitet tələbələrinin məcburi cəlb olunduğu kampaniya tədbirlərinin və YAP fəaliyyətlərinə gələn iştirakçıların tədbirdən getmələrinin qarşısının məcburi alındığı hallarının olduğunu müşahidə etmişdir. Bu hallar kampanianın 1990-cı il ATƏT-in Kopenagen Sənədinin 7.7-ci paraqrafı ilə müəyyən olunan qaydada ədalətli və azad mühitdə keçilrilməsi ilə bağlı narahatlıqlar yaradır.

Namizədlər öz kampaniyalarını yalnız özəl fondlardan və ianələrdən maliyyələşdirə bilərlər; dövlət tərəfindən kampaniya maliyyələşdirməsi yoxdur. Namizədlər kampaniyanın maliyyələşdirilməsi haqqında hesabatları MSK-ya təqdim etməlidirlər. Komissiya həmin hesabatları yoxlaya bilər. MSK qanunla tələb olunan qaydada namizədlərin hesabatlarını dərc etmişdir. Bununla belə, yoxlama nəticələrini dərc etmək üçün hüquqi tələbin olmaması və kampaniyanın maliyyələşdirilməsi ilə bağlı müddəaların yerinə yetirilməməsinə görə sanksiyaların yoxluğu kampaniyanın maliyyələşdirilməsinin şəffaflıq və hesabatlılıq səviyyəsini məhdudlaşdırmışdır.

Media ifadə və mətbuat azadlıqlarına əngəl yaradan, son dərəcə məhdudlaşdırıcı hüquqi çərçivə ilə xarakterizə olunan bir mühitdə fəaliyət göstərir. Onlayn məzmuna da şamil olunmaqla diffamasiyaya görə cinayət məsuliyəti, prezidentə böhtana görə sərt cərimələr və jurnalistlərin və bloqerlərin məhkəmə qaydasında həbsi və saxlanmaları halları istənilən potensial müstəqil jurnalistikaya öz mənfi təsirini göstərir. Məsul nazirliyə qabaqcadan məhkəmə qərarı olmadan qanunla vebsaytları müvəqqəti bloklamaq səlahiyyəti verildikdən sonra bəzi vebsaytlara giriş məhdudlaşdırılmışdır. Kampaniya ərzində DTİHB SMM tərəfindən müşahidəsi aparılmış bütün televiziya stansiyalarının və onlayn və çap mediasının əksəriyyətinin xəbər proqramları dövlət orqanlarını təriflməyə yönəlmişdir. Xəbər buraxılışlarının əksəriyyəti rəsmi olaraq vəzifədə olan prezidentə həsr olunduğu halda, bütün digər namizədlərə ümumilikdə yalnız qısa bir efir vaxtı verilmişdi. Müfəssəl Seçki Məcəlləsində kampaniya anlayışı kampaniya ilə əlaqəli redaksiya proqramlarını qeyri-mümkün etmişdir.

Qadınlar siyasətdə çox az təmsil olunmaqda davam edir. Bu seçkilərdə səkkiz prezidentliyə namizəddən heç bir qadın olmamışdır. Qadınlar seçki administrasiyasında da, xüsusilə idarəetmə vəzifələrində, az təmsil olunmuşlar.

MSK 58,175 yerli və 894 beynəlxalq müşahidəçini akkreditasiya etmişdir. DTİHB SMM-nın bir çox müsahibi qeyd etmişdirlər ki, xarici maliyyələşmə ilə əlaqədar qadağanedici hüquqi müddəalar və digər hüquqi və inzibati əngəllər sivil cəmiyyət təşkilatlarının müşahidə imkanını məhdudlaşdırır. Məşhur vətəndaş müşahidəçi qrupu olan Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi 2008-ci ildən qeydiyyata alınmır və onun könüllüləri fərdi qaydada akkreditasiyadan keçməyə məcbur olmuşdurlar.

Seçki ilə bağlı mübahisələr seçki komissiyaları və məhkəmələr tərəfindən həll olunur. Seçki günündən əvvəl və ya sonra heç bir rəsmi şikayət qeydə alınmamışdır. DTİHB SMM-nın bir neçə müsahibi xüsusilə bildirmişdir ki, onlar şikayət verməmişlər, çünki seçki komissiyalarının və məhkəmələrin şikayətlərə qərəzsiz və peşəkarcasına baxacağına etibar etmirlər. Rəsmi şikayətlərin olmadığı faktını nəzərə alaraq, DTİHB SMM şikayətlərə baxılması sisteminin effektivliyini və həmçinin onun təcrübədə seçki hüquqlanın pozulması hallarına qarşı adekvat və effektiv tədbirlər görmə qabiliyyətini qiymətləndirə bilməmişdir.

Seçki günü sakit şəraitdə keçirilsə də, icbari prosedurlara geniş miqyasda əməl edilməməsi, çox sayda ciddi pozuntu halları, şəffaflığın olmaması və müşahidəçilərin işinə maneələr ilə xarakterizə olunmuşdur. BSMM-nin müşahidəçiləri müşahidə aparılmış səsvermə məntəqələrinin 12 faizində səsverməni mənfi qiymətləndirmiş və çox sayda ciddi pozuntu faktlarının, o cümlədən qutulara topa büllitenlərin atılması, bir dəfədən çox səsvermə və çox sayda oxşar imzaların olması hallarının baş verdiyini bildirmişdirlər. Bir neçə dəfə səs vermə hallarının qarşısını alan vasitə kimi barmağın mürəkkəbə batırılması ilə əlaqədar prosedurlara əksər hallarda əməl edilməmişdir. BSMM-nın müşahidəçiləri müşahidə apardıqları səslərin sayılması proseslərinin yarısından çoxunu əsasən müəyyən olunmuş prosudurlara açıq-aydın əməl olunmaması və ya nəticələr də daxil olmaqla məqsədyönlü şəkildə saxtalaşdırılması halları səbəbindən mənfi qimətləndirmişlər. DSK səviyyəsində nəticələrin tabulyasiyası əsasən müsbət qiymətləndirilsə də, prosedurlara əksər hallarda əməl olunmamışdır.

MSK pozuntular səbəbində dörd seçki məntəqəsində nəticələri ləğv etməklə, 15 aprel tarixində yekun nəticələr protokolunu qəbul etmişdir. Konstitusiya Məhkəməsi 17 aprel tarixində nəticələri təsdiq etmiş və növbəti gün Prezident Əliyevin Milli Məclisin fövqaladə plenar iclasda inaqurasiyası keçirilmişdir.

Bu hesabatda Azərbaycanda keçirilən seçkiləri ATƏT qarşısında götürülmüş öhdəliklərə və demokratik seçkilər ilə bağlı digər beynəlxalq öhdəlik və standartlara daha da uyğunlaşdırmaq üçün səyləri dəstəkləyən bir çox tövsiyyələr verilir. Prioritet tövsiyyələr mövcud hüquqi çərçivəyə,

namizəlik üçün tələblərə baxılması, seçki administrasiyasının tərkibi, eləcə də media mühiti və çərçivəsi və seçki kampaniyaları ilə əlaqədardır. DTİHB səlahiyyətli orqanlara seçki prosesini təkmilləşdirməkdə və bu və əvvəlki hesabatlarda verilən tövsiyyələri yerinə yetirməkdə köməklik göstərməyə həmişə hazırdır.

## II. GİRİŞ SÖZÜ VƏ MİNNƏTDARLIQ

11 aprel 2018-ci il növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün Azərbaycan Respublikasının Hökumətinin dəvəti ilə və 21-22 fevral tarixlərində keçirilmiş Ehtiyacları Qimətləndirmə Missiyasının tövsiyyələri əasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) 9 mart tarixində Seçki Müşahidə Missiyasını (SMM) yaratmışdır. Corien Jonker-in rəhbərlik etdiyi DTİHB SMM Bakı şəhərində 12 üzvdən ibarət əsas komandadan və 28 uzunmüddətli müşahidəçidən ibarət olmuşdur. Uzunmüddətli müşahidəçilər 15 mart tarixində ölkə üzrə 13 bölgəyə göndərilmişdir.
Seçki günü DTİHB SMM-nın, ATƏT-in Parlament Assambleyasının (ATƏT PA) və Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) nümayəndə heyətlərinin birgə səyləri ilə Beynəlxalq Seçki Müşahidə Missiyası yaradılmışdır. Xanım Nilza de Sena ATƏT-in qısamüddətli müşahidəçi missiyasına rəhbərlik etmək üçün ATƏT-in Sədri tərəfindən Xüsusi Əlaqələndirici təyin olunmuşdur. Xanım Margret Kiener Nellen ATƏT PA-nın nümayəndə heyətinə rəhbərlik etmişdir. Cənab Viorel Riceard Badea AŞPA-nın nümayəndə heyətinə rəhbərlik etmişdir. Bu BSMM-na cəlb olunmuş təşkilatların hər biri 2005-ci il Beynəlxalq Seçki Müşahidəçiliyi üzrə Prinsiplər Bəyannaməsini təsdiq etmişdir. Ümumilikdə 40 ölkədən 350 müşahidəçi göndərilmişdir ki, onlardan 265 nəfəri uzun- və qısa-müddətli müşahidəçi olmaqla DTİHB tərəfindən, 48 nəfərlik heyət ATƏT PA, 37 nəfəlik heyət isə AŞPA tərəfindən ezam olunmuşdur. Açılış 138 seçki məntəqəsində, səsvermə isə ölkə boyu 1,300-dən çox seçki məntəqəsində müşahidə edilmişdir. Səslərin sayılması 133 seçki məntəqəsində, tabulyasiya isə 118 Dairə Seçki Komissiyasında (DSK) müşahidə edilmişdir. SMM seçkisonrası prosesləri izləmək üçün aprel ayının 21-ə kimi Azərbaycanda qalmışdır.

DTİHB SMM seçki prosesinin ATƏT qarşısında götürülmüş öhdəliklərə, demokratik seçkilərə dair digər beynəlxalq öhdəlik və standartlara, eləcə də milli qanunvericiliyə uyğunluğunu qiymətləndirmişdir. Bu yekun hesabat 12 aprel 2018-ci il tarixində Bakıda keçirilmiş mətbuat konfransında verilmiş İlkin Faktlar və Nəticələr haqqında Bəyanata əsaslanır.[2]

DTİHB SMM seçkiləri müşahidə etmək üçün göndərdiyi dəvətə görə Azərbaycan Respublikasının hökumətinə və etdikləri əməkdaşlıq və göstərdikləri yardıma görə Mərkəzi Seçki Komissiyasına (MSK) və Xarici İşlər Nazirliyinə təşəkkürünü bildirir. SMM həmçinin əməkdaşlıq etdikləri və fikirlərini bölüşdükləri üçün siyasi partiyaların nümayəndələrinə, namizədlərə, mətbuata, sivil cəmiyyət təşkilatlarına, beynəlxalq ictimaiyyətə və digər müsahiblərə öz dərin minnətdarlığını bildirir.

## III. ÜMUMİ MƏLUMAT VƏ SİYASİ KONTEKST

5 fevral 2018-ci ildə Prezident İlham Əliyev 11 aprel tarixində növbədənkənar president seçkilərinin keçiriləcəyini elan etdi. Azərbaycan Respublikasında prezident idarəetmə sistemi mövcuddur və bu sistemdə prezident parlament ilə müqayisədə geniş konstitusional səlahiyyətlərini həyata keçirir. Prezident nazirlər kabinetini təyin edir və ona sədrlik edir və vitse-prezidentləri, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarını təyin edir. Prezident həmçinin Konstitusiya Məhkəmisinin, Ali Məhkəmənin və apelyasiya məhkəmələrinin hakimlərinin və Baş Prokurorun namizədliyini irəli sürür və bunlar da Milli Məclis tərəfindən rəsmi olaraq təyin edilir. Avropa Şurasının Avropa Hüquqla

---

2 Bütün əvvəlki DTİHB-nin Azərbaycana dair seçki hesabatlarına baxın.

Demokratiya Komissiyası (Venesiya Komissiyası) belə nəticəyə gəlmişdir ki, vəzifədə olan prezidentə növbədənkənar prezident seçkiləri təyin etməyə icazə verən müddəa demokratik standartlara uyğun deyildir.[3]

Seçki Milli Məclisdə əksəriyyətə sahib olan hakim Yeni Azərbaycan Partiyasının (YAP) üstün olduğu siyasi mühitdə keçirilmişdir. Partiyanin sədri İlham Əliyev dördüncü ardıcıl prezidentlik dövrü üçün namizəd olmuşdur.[4] Bir neçə müxalif siyasi təşkilatlar, o cümlədən Xalq Cəbhəsi Partiyası və Müsavat Partiyası rəqabət mühitinin olmamasını əsas gətirərək seçkiləri boykot etmişdir. Bu müsahiblərin əksəriyyəti seçkilərin həqiqi rəqabət şəraitində keçirilməyəcəyinə dair mövqelərini DTİHB SMM-ə bildirmiş və iddia etmişdirlər ki, vəzifədə olan prezidentlə yarışan yeddi namizəd ya ciddi siyasi alternativ olmamış ya da prezidenti fəal şəkildə dəstəkləmişdir. Digər müxalifət partiyaları DTİHB SMM-ə bildirmişdirlər ki, növbədənkənar seçki tarixinə qədər olan müddət seçkilərdə əhəmiyyətli iştirak etmələri üçün yetərli deyil və buna görə də onlar öz namizədlərini irəli sürməmişdirlər. Bu iddialara cavab olaraq, bir aparıcı YAP funksioneri DTİHB SMM-ə bildirmişdir ki, bütün partiyalar qabaqcadan bilirdilər ki, 2018-ci ildə president seçkiləri keçiriləcəkdir. Bundan əlavə, o, qeyd etmişdir ki, seçkiləri boykot yaxud seçkilərdə iştirak etməmək haqqında qərar bu partiyaların öz qələbə şanslarının olmadığını bildikləri üçün ortaya atılmışdır.

DTİHB SMM-in bir çox müsahibi birləşmək, sərbəst hərəkət və söz azadlıqlarına ciddi məhdudiyyətlərin qoyulduğunu qeyd etmişdir.[5] Bir neçə müsahib bildirmişdir ki, qeydiyyata alınmamış Respublikaçı Alternativ Partiyasının (REAL) sədri Avropa İnsan Hüquqları Məhkəməsinin (AIHM) onun azadlığa buraxılmasına çağıran hökmlərinin olmasına baxmayaraq həbsdə saxlanılaraq bu seçkilərdə iştirakının qarşısı alınmışdır.[6] Bir neçə siyasi təşkilatın aparıcı nümayəndələri DTİHB SMM-ə toplaşma azadlığına qoyulmuş məhdudiyyələr və siyasi fəaliyyətləri üçün kommersiya ofis sahələrinin və yerlərin təmin olunmasında üzləşdikləri çətinliklər haqqında məlumat vermişlər. Onlar həmçinin qeyd etmişdir ki, Azərbaycanda təxminən 150 siyasi məhbus / vicdan məhbusu vardır. [7] Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri qeyd etmişdir ki, AXCP-nin bir çox aparıcı funksioneri həbsdədir və eyni zamanda özünün də hərəkət azadlığına geniş məhdudiyyətlərin davam etdiyini bildirmişdir.[8]

Qadınlar ilə kişilər arasında hüquqların bərabərliyi Konstitusiya və qanunla təmin olunur. Qadınların siyasi və ictimai həyatda iştirakını təşviq etmək üçün heç bir xüsusi hüquqi tədbir mövcud deyil.[9] Bir neçə istisna ilə qadınlar siyasətdə çox aşağı təmsil olunmaqdadır, Milli Məclisdə 125 yerdən 21-ni qadınlar tutur, dövlət komitələrinin 14 sədrindən 1-i qadındır, və nəhayət Nazirlər Kabinetində nazir vəzifəsində heç bir qadın yoxdur. Bu seçkilərdə mübarizə aparan səkkiz namizəddən heç biri qadın olmamışdır.

---

3 Baxın Avropa Şurasının Avropa Hüquqla Demokratiya Komissiyasının (Venesiya Komissiyası) 18 oktyabr 2016-cı il tarixli "26 sentyabr 2016-cı il Referendumuna təqdim olunmuş Konstitusiyaya Dəyişikliklərin Layihəsi haqqında Rəyin" 55-ci paraqrafı.

4 Partiyadan DTİHB SMM-ə bildirmişlər ki, seçki 2025-ci ildə president və parlament seçkilərinin üst-üstə düşməsinin qarşısını almaq üçün irəli çəkilmişdir.

5 BMT-nin İnsan Hüquqları Komitəsi öz "Azərbaycan haqqında dördüncü dövri hesabata dair yekun müşahidələr"-inin (16 noyabr 2016), CCPR/C/AZE/CO/4, 43-cü paraqrafında Azərbaycanı […tam şəffaf seçkiləri və həqiqi plüral siyasi debatın keçirilməsini təmin etməklə … öz seçki qaydalarını və təcrübələrini Sazişə uyğunlaşdırmağa çağırır…]."

6 Baxın IlgarMammadov v. Azerbaijan (No. 2), No. 919/15 (ECtHR 16 November 2017).

7 Beynəlxalq insan hüquqları qurumları və vətəndaş cəmiyyəti təşkilatlarına görə, çox sayda siyasi məhbus vardır. Məsələn, BMT-nin İnsan Hüquqları Şurasının "Xüsusi Repartyorun Azərbaycana missiyası zamanı insan hüquqları müdafiəçilərinin vəziyyəti haqqında hesabatı" (20 fevral 2017).

8 O, həmçinin DTİHB SMM-ə bildirmişdir ki, Avropa İnsan Hüquqları Məhkəməsinin hökmünə baxmayaraq, o, 2005-ci ildən bəri səyahət qadağası altındadır. Baxın Kerimli v. Azerbaijan, No. 3967/09 (ECtHR 16 July 2015).

9 Öz Azərbaycan haqqında beşinci dövri hesabat üzrə yekun müşahidə-sində BMT-nin Qadınlara qarşı Ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsi müvəqqəti xüsusi tədbirlərin, həmçinin kvotaların qəbul olunmasını tövsiyyə etmişdir.

# IV. HÜQUQİ ÇƏRÇİVƏ VƏ SEÇKİ SİSTEMİ

Azərbaycan demokratik seçkilərin keçirilməsi ilə əlaqədar əsas beynəlxalq və regional sənədlərin iştirakçısıdır. [10] Konstitusiyada əsas hüquqlar və azadlıqlar, o cümlədən toplaşma, ifadə, birləşmə və informasiya əldə etmək azadlığı, eləcə də siyasi həyatda iştirak etmək hüququ təmin olunur. Konstitusiyada həmçinin gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququna təminat verilir. Bu konstitusional təminatlar əslində Cinayət Məcəlləsinin müddəaları, xüsusilə diffamasiya ilə əlaqədar müddəalar və toplaşma, ifadə və birləşmə azadlıqlarının hüquqi və inzibati qaydada digər qadağaları ilə məhdudlaşdırılır, bu hal həmçinin BMT-nin İnsan Hüquqları Komitəsi tərəfindən qeyd olunur.[11] Vətəndaş cəmiyyəti təşkilatlarının, o cümlədən seçki müşahidəsinə cəlb olunmuş şəxslərin fəaliyyət göstərə biləcəyi sahə, xaricdən maliyyələşmə ilə bağlı qanunlar da daxil olmaqla, məhdudlaşdırıcı qanunvericilik ilə getdikcə daha da daralır.[12]

Prezident seçkiləri əsasən 1995-ci il Konstitusiyası (ən son 2016-cı ildə düzəliş olunub) və bütün seçkiləri və referendumları nizamlayan müfəssəl 2003-cü il Seçki Məcəlləsi (2013 və 2017-ci illərdə düzəliş olunub) ilə tənzimlənir.[13] Seçki Məcəlləsi müfəssəldir və yaxşı tərtib olunub. Ən son düzəlişlər Məcəlləni 2016-cı il konstitusiya düzəlişlərinə uyğunlaşdırmaq məqsədi daşımışdır və növbədənkənar seçkilərə dair müddəaları təmin etmişdir.[14]

Seçki Məcəlləsini tətbiq etmək və daha da əhatəli etmək üçün Mərkəzi Seçki Komissiyası (MSK) 48 təlimat qəbul etmişdir ki, bunlardan da 11-i xüsusilə prezident seçkiləri ilə əlaqədar olmuşdur. Bu sənədlər normativ hüquqi aktlar kimi Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Seçki prosesinin bəzi aspektləri, məsələn, ikinci tur olduqda, prosedurlar və müddətlər, seçki bülletenlərinin təkrar sayılması qaydaları və əsasları və seçki nəticələrinin ləğv olunması üçün prosedurlar və müddətlər MSK qaydaları ilə nizamlanmır.

*Seçkilərin ikinci turu olduqda, prosedurlar və müddətlər, seçki bülletenlərinin təkrar sayılması qaydaları və əsasları və seçki nəticələrinin ləğv olunması üçün prosedurlar və müddətlər müvafiq normativ hüquqi aktlarda təfsilatlı əks olunmalıdır.*

---

10 O cümlədən, 1966-cı il Vətəndaş və Siyasi Hüquqlara dair Beynəlxalq Saziş (İCCPR), 1979-cü il Qadınlara qarşı Ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Konvensiya (CEDAW), 1965-ci il İrqi Ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Beynəlxalq Konvensiya, 2003-cü il Korrupsiyaya qarşı Konvensiya, 2006-cı il Əlilliyi olan İnsanların Hüquqlarına dair Konvensiya (CRPD) və 2002-ci il Müstəqil Dövlət Birliyinə Üzv Dövlətlərdə Demokratik Seçkilərin Standartları, Seçki Hüquqları və Azadlıqları haqqında Konvensiya. Azərbaycan həmçinin Avropa Şurasının Venesiya Komissiyasının və Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) üzvüdür.

11 BMT-nin İnsan Hüquqları Komitəsinin "Azərbaycan haqqında dördüncü dövri hesabat üzrə yekun müşahidələri" (16 noyabr 2016), CCPR/C/AZE/CO/4, paraqrapf 38, 40 və 42. Həmçinin baxın Avropa Şurası Parlament Assambleasının (AŞPA) Qətnaməsi "Azərbaycanda demokratik institutların fəaliyyəti" (11 oktyabr 2017), paraqraf 6, 7 və 8.

12 Qeyri-hökumət təşkilatları ilə əlaqədar qanunvericiliyə 2013 və 2014-cü illərdə əhəmiyyətli dərəcədə düzəliş olunmuşdur ki, bud a qeydiat prosedurlarını çətinləşdirmiş və çox QHT-lərin qeydiyyatdan keçməməsinə səbəb olmuşdur. Bu düzəlişlərdə xarici maliyyələşməyə dair qadağalar da vardır ki, bud a Azərbaycan QHT-lərinin fəaliyyət qabiliyyətinə təsir etməklə yanaşı, həmçinin bir sıra xarıcı QHT-lərin ölkəni tərk etməsinə gətirib çıxarmışdır. Baxın Venesiya Komissiyasının "Azərbaycan Respublikası tərəfindən düzəliş edilmiş Qeyri-hökumət təşkilatları (İctimai Birliklər və Fondlar) haqqında Qanuna dair Rəy", paraqraf 93 və "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyinin insan hüquqları standartlarına uyğunluğuna dair Rəyi."

13 Seçki prosesinin aspektləri həmçinin Sİyasi Partiyalar haqqında Qanun, Toplaşma Azadlığı haqqında Qanun, Qeyri-Hökumət Təşkilatları haqqında Qanun, Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanun, Radio və Televiziya Yayımı haqqında Qanun, İnformasiyalar əldə etmək haqqında Qanun və Cinayət Məcəlləsinin, İnzibati Prosessual Məcəlləsinin və Mülki Məcəllənin müvafiq müddəaları ilə tənzimlənir.

14 Bu düzəliş həmçinin səsvermə üçün zərflərdən istifadə olunmasının aradan qaldırılması kimi bəzi səsvermə prosedurlarını dəyişdirmiş və namizədlərin pulsuz efir vaxtına görə ödəniş etmək öhdəliyini ləğv etmişdir.

Ən son konstitusiya düzəlişləri prezident tərəfindən təklif olunmuş və 2016-cı ildə keçirilmiş referendum ilə qəbul edilmişdir. Həmin düzəlişlər prezidentə xüsusi şərtlər müəyyən etmədən növbədənkənar prezident seçkiləri elan etmək səlahiyyəti vermiş və prezident tərəfindən təyin olunan və azad edilən və prezident istefa verdikdə yaxud öz vəzifəsini icra edə bilmədikdə, onu əvəz edə biləcək, seçilməyən vitse-prezidentlər vəzifəsi müəyyən etmişdir. 2017-ci ilin fevral ayında prezident öz həyat yoldaşı və eyni zamanda YAP-ın Milli Məclisdə deputatı olan Mehriban Əliyevanı birinci vitse prezident təyin etmişdir. Konstitusiyaya düzəliş etmək təşəbbüsü müxalifət partiyaları və vətəndaş cəmiyyəti tərəfindən müqavimətlə qarşılanmışdır, onlar iddia edirdilər ki, bu dəyişikliklər prezidentə həddən artıq geniş səlahiyyətlər verir və dəyişikliklərin qəbul olunduğu prosesdə geniş iştirak təmin edilməmişdir.. 2016-cı il düzəlişlərinin mahiyyəti və onların qəbul olunduğu proses bir neçə beynəlxalq insan hüquqları təşkilatının narahatlığına səbəb olmuşdur.[15]

President ümumxalq səsverməsi yolu ilə minimum seçici iştirakı tələbi olmadan verilən səslərin mütləq çoxluğu ilə yeddi il müddətinə birbaşa seçilir. Əgər heç bir namizəd tələb olunan əksər səs çoxluğunu əldə etməzsə, ən çox səs toplamış iki namizəd arasında birinci turdan sonrakı ikinci Bazar günü ikinci tur keçirilir.

DTİHB-nun bir neçə əvvəlki tövsiyyələrinin qismən nəzərə alınmışsa da, DTİHB-nun prioritet tövsiyyələrindən heç biri yerinə yetirilməmişdir. Eynilə, Venesiya Komissiyasının əsas tövsiyyələrinin yalnız məhdud sayı icra olunmuşdur.[16]

*Seçki qanunvericiliyini beynəlxalq standartlara və öhdəliklərə uyğunlaşdırmaq, konstitusiya ilə qorunan hüquqları və azadlıqları təmin etmək, boşluqları və ziddiyyətləri aradan qaldırmaq və DTİHB-nun və Venesiya Komissiyasının tövsiyyələrini yerinə yetirmək üçün həqiqi iştirak və məsləhətləşmə prosesi ilə növbəti seçkilərə qədər bu qanunvericiliyə lazımi düzəliş edilməlidir.*

## V. SEÇKİ ADMİNİSTRASİYASI

Seçki MSK, 125 Dairə Seçki Komissiyası (DSK) və 5,426 Məntəqə Seçki Komissiyasından (MnSK) ibarət üç səviyyəli seçki administrasiyası tərəfindən həyata keçirilmişdir. Hər bir komissiyanın uyğun olaraq 18, 9 və 6 üzvü olmuşdur. Bunlardan məcburi köçkünlərin səs verməsina şərait yaradılması üçün ümumilikdə 510 MnSK-ya malik 10 DSK yaradılmışdır.. Xəstəxanalarda, digər stasionar müəssisələrdə, həbsxanalarda və saxlanma mərkəzlərində və hərbi hissələrdə səs vermək üçün əlavə 215 MnSK yaradılmışdır. Xarici İşlər Naziriliyi (XİN) ölkədən xaricdə yaradılmış 41 seçki məntəqəsində ölkə xaricində səsvermə prosesini əlaqələndirmişdir.

Bütün seçki komissiyaları 2016-cı ildə müəyyən olunmuş cari tərkibdə olmaqla beş il müddətinə təyin olunan daimi orqanlardır. MSK üzvləri Milli Məclis tərəfindən seçilir, DSK üzvləri MSK tərəfindən təyin olunur, MnSK üzvləri isə müvafiq DSK-lar tərəfindən təyin olunur. 18 MSK üzvündən üçü qadındır, həmçinin iki katibdən biri də qadındır. DSK və MnSK səviyyələrində üzvlərin uyğun olaraq

---

15 Baxın Venesiya Komissiyasının 18 oktyabr 2016-cı il tarixli "26 sentyabr 2016-cı il Referendumuna təqdim olunmuş Konstitusiyaya Dəyişikliklərin Layihəsinə dair Rəyi". BMT-nin İnsan Hüquqları Komitəsi öz "Azərbaycan haqqında dördüncü dövri hesabata dair yekun müşahidələr"-inin (16 noyabr 2016), CCPR/C/AZE/CO/4, 43-cü paraqrafında Azərbaycanı […tam şəffaf seçkiləri və həqiqi plüral siyasi debatın keçirilməsini təmin etməklə … öz seçki qaydalarını və təcrübələrini Sazişə uyğunlaşdırmağa çağırır…]."

16 Azərbaycan Respublikasının Seçki Məcəlləsinə Düzəlişlər Layihəsinə dair Birgə Aralıq Rəyə (CDL-AD(2008)003) əsasən prezident seçkiləri ilə əlaqədar bəzi məsələlər, o cümlədən seçki komissiyalarının tərkibi; prezident seçkilərinə ərizələrin imzalanması; namizədlərin prezident seçkilərindən imtina etməsi; maliyyə təminatları və seçki nəticələrinin etibarsız hesab olunmasının bəyan edilməsi kimi məsələlər hələ də lazımi səviyyədə cavablandırılmayıb.

17 və 36 faizi qadındır. 125 DSK-dan yalnız 2-nə qadınlar sədrlik edir. MnSK sədrlərinin təxminən 34 faizi qadındır.[17]

*Seçki komissiyalarının sədrləri və üzvləri vəzifəsində qadınların sayını artırmaq tədbirləri və mexanizmləri nəzərə alınmalıdır.*

Qanunla bütün seçki komissiyalarının tərkibi parlamentdəki siyasi qüvvələrin təmsilçiliyini əks etdirir: parlamentdəki əksəriyyət, azlıq (parlamentdə təmsil olunan digər siyasi partiyalar olaraq müəyyən edilir) və müstəqil namizədlər kimi seçilən parlament üzvləri tərəfindən təyin olunan deputatlar üçün üç bərabər kvota saxlanır. Seçki komissiyalarını təyin etmək üçün istifadə olunan qayda reallıqda qərəzsiz seçki administrasiyasını təmin etmir, çünki komissiya üzvlərini təyin edən parlamentdəki üç qrup arasında siyasi baxımdan heç bir fərq yoxdur, bu hal həmçinin AİHM-nin presedent hüququ ilə təsdiqlənir. [18] Bundan əlavə, bütün komissiyaların sədrləri qanunla parlamentdə əksəriyyətin təyin etdiyi şəxslər olur. Əksər namizədlər seçki administrasiyasının işinə etibar etdiklərini bildirdikləri halda bəzi müxalifət partiyaları seçkini boykot etmək haqqında verdiyi qərarın səbəblərindən biri kimi seçki administrasiyasına etibar etmədiklərini qeyd etmişdirlər.

*Seçki komissiyalarının qərəzsizliyini gücləndirmək və onların işinə ictimai inamı artırmaq məqsədilə Seçki Məcəlləsində bütün səviyyələrdə seçki komissiyalarının tərkibini dəyişməklə bağlı düzəlişlər olunmalıdır.*

MSK bütün seçkilərin və referendumların ümumilikdə keçirilməsi üçün məsul olan qurumdur və geniş mandata malikdir.[19] MSK tələb olunduqda, iclaslar keçirmişdir. Belə iclaslara mütəmadi olaraq DTİHB SMM dəvət olunmuşdur və həmçinin mətbuat və bəzi namizəd nümayəndələri belə tədbirlərdə yaxından iştirak etmişdir. DTİHB SMM-in müşahidə apardığı MSK iclaslarında heç bir müxalif və ya mübahisəli fikirlər səsləndirilməmişdir və üzvlərin əksəriyyəti heç bir müzakirədə iştirak etməmişdir. Bu müşahidə olunan iclaslar yalnız qərarları formal olaraq yekdil səs ilə təsdiq etməyə xidmət etmişdir.

Bir çox DSK öz qərarlarını bildiriş lövhələrində dərc etmək öhdəliyini yerinə yetirdiyi halda, DTİHB SMM-in müşahidə apardığı DSK-ların ən azı dörddə biri bunu etməmişdir. DSK-ların işinin şəffaflığını məhdudlaşdıran bir fakt da ondan ibarət olmuşdur ki, DSK iclasları çox zaman planlaşdırılmamış şəkildə çağrılmış və DSK qərarları onlayn dərc olunmamışdır. [20] MSK və DSK iclaslarının protokolları dərc edilməmişdir, çünki bu, qanunla tələb olunmur. [21]

*Şəffaflığı və hesabatlılığı artırmaq üçün, seçki komissiyaları öz məsuliyyətinə aid olan bütün əsas işləri formal iclaslar zamanı icra etməlidir. Belə iclasların protokollarının və DSK-ların qərarlarının onlayn dərc olunmasını tələb etmək üçün qanunda dəyişiklik olunmalıdır.*

---

17 Həmçinin baxın 2997-ci il QQALK (CEDAW) Komitəsinin QQALK-a dair 23-cü Ümumi Tövsiyyəsinin 26-cı paraqrafı.

18 Milli Məclisin sessiyalarının stenoqrafiyalarına baxın. Baxın həmçinin, məsələn, *Qəhrəmanlı və Başqaları v. Azərbaycan*, Ərizə No. 36503/11 (AİHM, 8 oktyabr 2015) paraqraf 78, *Tahirov v. Azərbaycan*, Ərizə No. 31953/11 (AİHM, 11 iyun 2015), paraqraf 60 və *Ənnağı Hacıbəyli v.Azərbaycan*, Ərizə No. 2204/11 (AİHM, 22 oktyabr 2015), paraqraf 53.

19 Buraya namizədlərin qeydiyyatı, seçicilər reyestrinin tutulması və DSK-nın qərarlarından şikayətlərə baxılması fəaliyyətləri daxildir. MSK həmçinin kampaniyanın maliyyəsi və kampaniya zamanı mətbuata nəzarətin aparılması üçün cavabdehlik daşıyır.

20 MSK geniş vebsayta malik olduğu və bütün qərarlarını və qaydalarını dərc etdiyi halda, DSK-ların vebsaytları yoxdur və DSK qərarları MSK-nın vebsaytında yerləşdirilmir.

21 VSHBS-ə 2011-ci il VSHS Ümumi Şərh 34-ün 19-cü paraqrafında deyilir ki: "İnformasiyalar əldə etmək hüququnu qüvvəyə mindirmək üçün, Dövlət tərəfləri fəal şəkildə Hökumətin dövlət marağı olan informasiyalarını kütləvi istifadəyə verməlidir. Dövlət tərəfləri belə informasiyalara asan, sürətli, effektiv və mümkün çıxışı təmin etmək üçün bütün səylərini göstərməlidirlər".

Ümumiyyətlə, seçki administrasiyası seçkini qanunla müəyyən olunmuş müddətləri gözləməklə bütün səviyyələrdə çox yaxşı təşkil olunmuş və yaxşı təmin edilmiş təəssüratı yaratmışdır. Seçkilərə hazırlıq zamanı MSK əsas diqqəti seçki günü prosedurlarına, o cümlədən nəticələrə dair protokolların hazırlanmasına verməklə DSK və MnSK-lar üçün təlimlər təşkil etmişdir. Bundan əlavə, seçki günü növbədə olan hüquq-mühafizə orqanlarının nümayəndələri üçün təlimlər keçirilmişdir. DTİHB SMM müşahidəçiləri bu təlimlərin peşəkar səviyyədə keçirildiyini qeyd etmişdir.

Əvvəlki seçkilərdə olduğu kimi, şəffaflığı artırmaq və uzaqdan müşahidəyə imkan vermək məqsədi ilə, səsvermə və səslərin sayılması prosesini yayımlamaq və qeydə almaq üçün MSK təxminən 1,000 seçki məntəqəsində veb kameralar quraşdırmışdır. MSK ümumiyyətlə ictimai məkana nəzarətin artdığını və bu səbəbdən seçicilərin kameraların olmasına adi baxdığını iddia edərək, görüşlərdə və iclaslarda səslənən, səslərin gizliliyinin lazımi səviyyədə olmaması ilə bağlı narahatlıqlara haqq qazandırmamışdır.. MSK qabaqcadan kameraların quraşdırıldığı səsvermə məntəqələrinin siyahısını dərc etmişdir. MSK-dan DTİHB SMM–a bildirmişdir ki, səsvermə kabinələrinin kameralardan heç birinin görüntü sahəsinə düşməməsi təmin edilmişdir. Bununla belə, seçki günü DTİHB SMM-in müşahidəçiləri qeyd etmişdir ki, müşahidə aparılmış kamera quraşdırılmış hər beşinci seçki məntəqəsində səsin gizliliyi kameranın yerinə görə şübhə altında ola bilər.[22]

*Seçki komissiyaları səsvermə məntəqələrində kameraların quraşdırılmasını elə təmin etməlidir ki, səslərin gizliliyinə yarana biləcək istənilən şübhəni minimuma endirsin.*

MSK seçici iştirakını artırmaq məqsədilə geniş ictimai maarifləndirmə kampaniyası keçirmiş, məlumat xarakterli posterlər paylamış və seçkiyə qədərki müddət ərzində yayımlanmış televiziya və radio verilişləri hazırlamışdır. Bununla belə, bu kampaniyanın əsas məqsədi seçiciləri öz hüquqları haqqında məlumatlandırmaq olmamışdır.

Səlahiyyətli orqanlar əlilliyi olan insanların səs verməsinə şərait yaratmaq üçün tədbirlər görmüşdür. MSK-dan DTİHB SMM-ə bildirilmişdir ki, komissiya görmə qabiliyyəti pozulmuş seçicilər üçün “Braille” trafareti təmin edib və fiziki əlilliyi olan seçicilərin səs verməsi üçün qeydiyyata alındığı 1,455 seçki məntəqəsinin hamısında keçidlər quraşdırılıb. Seçki materiallarının milli azlıqlarının dillərində hazırlanması üçün heç bir hüquqi tələb yoxdur. Buna görə də, bütün seçki bülletenləri, protokollar və digər rəsmi seçki materialları, eləcə də seçici maarifləndirmə və məlumatlandırma materialları məhz Azərbaycan dilində hazırlanmışdır.

## VI. SEÇİCİ QEYDİYYATI

Məhkəmə qərarı ilə fəaliyyət qabiliyyətsizliyi elan olunmuş şəxslər istisna olmaqla, 18 və yuxarı yaşda olan bütün vətəndaşların seçki günü səs vermək hüququ var. Əqli çatışmazlıq səbəbi ilə səs vermək hüququndan məhrum edilmə beynəlxalq öhdəliklərə və standartlara uyğun deyildir və BMT-nin Əlilliyi olan İnsanların Hüquqları haqqında Konvensiyanın 12 və 29-cu Maddəsinə və ATƏT-in 1990-cı il Kopenhagen sənədinin 7.3-cü paraqrafına ziddir. [23] Vətəndaşlardan əlavə, Azərbaycan

---

[22] Bəzi veb kameralar səsvermə kabinələrinə çox yaxın və bir sıra hallarda hətta birbaşa kabinələrin üstündə quraşdırılmışdır.

[23] ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.3-cü paraqrafında göstərilir ki, iştirakçı Dövlətlər “yetişkin vətəndaşlara ümumi və bərabər seçki hüququnu təmin edəcəkdir”. Həmçinin baxın Əlilliyi olan İnsanların Hüquqları üzrə BMT Komitəsi (CRPD) “Azərbaycan üzrə Yekun Müşahidələr” (12 may 2014), CRPD/C/AZE/CO/1, paraqraf 45. CRPD Komitəsinin 2013-cü il 4/2011 saylı Məlumatının 9.4-cü paraqrafında qeyd olunur ki, “başa düşülən və ya həqiqi psixo-sosial yaxud əqli çatışmazlıq əsasında səs vermək hüququnun istisna edilməsi, həmçinin fərdi qiymətləndirməyə uyğun məhdudiyyət əlillik ilə bağlı ayrı-seçkiliyi təşkil edir.”

ərazisində ən azı son beş il ərzində yaşamış olan vətəndaşlığı olmayan şəxslərin səs vermək hüququ var.[24]

*Əqli çatışmazlığı olan insanların səsvermə hüquqlarına məhdudiyyətlər götürülməlidir.*

Seçici siyahıları MSK tərəfindən saxlanan ümumi seçici reyestrindən çıxarılmışdır. Seçki administrasiyası seçici siyahılarını yeniləmək üçün əhəmiyyətli tədbirlər görmüşdür. Qanunla MnSK-lar hər ilin may ayının 30-a qədər, eləcə də seçki gününə 25 gün qalmış siyahıları yeniləyir. Bundan əlavə, MSK və DSK-lar icra hakimiyyəti orqanlarının müxtəlif yerli şöbələrindən vətəndaşlar haqqında məlumatlarda aylıq yenilənmələri əldə etmək təcrübəsinə malikdir. MSK və DSK-lardan verilən məlumata görə, bu təcrübə yenilənmələrin tezliyini artırdığı üçün seçici reyestrinin dəqiqliyini təkmilləşdirir.[25] Bununla belə, bu proses mövcud qanunvericilikdə və ya qaydalarda öz əksini tapmayıb və bu da öz növbəsində prosesin şəffaflığını və hesabatlılığını məhdudlaşdırır.[26] Bundan əlavə, DSK-larının apardığı yenilənmələrə tam məlumatların əvəzinə yalnız seçici reyestrində əks olunması lazım olan son dəyişikliklərin siyahısı daxildir, bu isə əvvəlki yenilənmələr zamanı yol verilmiş ola bilən xəta yaxud səhvlərin seçici reyestrində mövcud olması riskini yaradır. ,.

*Seçici siyahısının yoxlanması və təkmilləşdirilməsi prosesinin bütün prosedur və əməliyyat aspektlərini nizamlayan hərtərəfli təlimatlar hazırlanmalıdır. Dövlət orqanları həmçinin seçici məlumatlarının hökumət tərəfindən saxlanan yaşayış yeri və şəxsiyyət vəsiqəsi üzrə məlumatlara uyğunluğunu nəzərdən keçirə bilər.*

MSK-dan DTİHB SMM-ə bildirilmişdir ki, daimi seçici reyestrində 335,422 nəfəri məcburi köçkün olmaqla ümumilikdə 5,192,063 seçici qeydiyyata alınıb. Bundan əlavə, xaricdə səs vermək üçün 13,961 seçici müvəqqəti siyahılarda qeydiyyata alınmışdır və 122,302 seçici ölkə daxilində xüsusi seçki məntəqəsində səs vermək üçün qeydiyata alınmışdır.

Dövlət orqanları tərəfindən verilmiş məlumatlar seçici siyahılarında seçicilərin sayının səsvermə yaşı olan vətəndaşların təxmini sayından təqribən iki milyon az olduğunu göstərir. 27 Əksər DTİHB SMM müsahibi öz fikirlərini belə ifadə etmişlər ki, bu, ölkə xaricində müvəqqəti və daimi yaşayan çox sayda vətəndaşların seçici siyahılarından çıxarılmasına görə baş vermişdir. Lakin boşluğu izah etmək üçün kütləvi məlumatların olmaması rəqəmlərin dəqiqliyi ilə bağlı suallar yaradır və bu, ictimai etimada mənfi təsir göstərə bilər.

MSK seçiciləri seçici siyahılarında onlara aid məlumatları yoxlamağa dəvət etmək üçün geniş kampaniya keçirmişdir. Seçicilər seçici siyahılarında özləri haqqında məlumatları yoxlamaq üçün tam şəraitlə təmin olunmuşdur. Onlar onlayn alətlərlə və ya MSK-nın qaynar xəttindən istifadə etməklə seçici siyahılarını yoxlaya bilərdilər. MSK məntəqələrdə yerləşdirilən daimi seçici siyahılarının tam paketini onlayn dərc etmişdir. Seçici siyahılarından ilkin çıxarışlar mart ayının 7-dən 17-ə kimi seçicilərin baxması və yoxlaması üçün MnSK-larda təqdim olunmuşdur. Həmin vaxt da seçicilər öz məlumatlarını şəxsən yoxlaya və düzəlişlərin aparılmasını tələb edə bilərdi.

---

24 Rəsmi statistikaya görə, Azərbaycanda 3,500 vətəndaşlığı olmayan şəxs var. MSK-dan DTİHB SMM-a bildirilmişdir ki, komissiyada səs vermək məqsədilə bu insanların nə qədərinin qeydiyyata alındığı ilə bağlı məlumat yoxdur.

25 Müxtəlif hökumət institutlarından verilən məlumatlar seçici reyestrində dəyişiklikləri əks etdirən DSK-lara çap nüsxədə təqdim olunur.

26 Seçki Məcəlləsinin 46.15-ci Maddəsinə əsasən, vətanşalar haqqında məlumatlarda yenilənmələri aparan hökumət idarələrinin rəhbərləri məlumatların dəqiqliyi və tamlığı və onların vaxtaşırı təqdim olunması üçün məsuliyyət daşıyır.

27 2017-ci ildən bəri olan Dövlət Statistika Komitəsinin əhali statistikası göstərir ki, səsvermə yaşı olan 7.1 milyondan çox insane vardır.

Aprel ayının 8-ə kimi seçicilər onların ölkədə hər hansı seçki məntəqəsində səs verməsinə icazə verən qeydiyyatdan çıxma vəsiqəsi (QÇV) üçün müraciət edə bilərdilər. MSK-nın məlumatına görə ümumilikdə 150,000 QÇV çap olunub ki, bunun da 20,000-dən çoxu qanunla müəyyən olunmuş son tarixə qədər seçicilərə verilmişdir.[28]

*Seçicilərin qeydiyyatı prosesinin şəffaflığını təkmilləşdirmək üçün seçici siyahısının yoxlanması və yenilənməsi prosesi haqqında təfsilatlı ilkin və yekun məlumatlar dərc olunmalıdır.*

Qanunla vətəndaşlar öz yaşayış yerlərinin məntəqə daxilində olmalarını sübut edə bildikdə, MnSK-nın qərarı ilə seçki günü səs vermək üçün qeydiyyatdan keçə bilərlər. MSK-nın məlumatına görə, seçki günü əlavə seçki siyahılarına ümumilikdə 18,452 seçici əlavə olunmuşdur ki, bu da ya müəyyən səsvermə məntəqələrində seçici siyahılarında uyğunsuzluqların olduğunu, ya da seçki günü həmin MnSK-lar tərəfindən uyğunluq üçün lazımsız yoxlamaların aparıldığını göstərir.[29] Əhatəli olmasına baxmayaraq, seçki günü MnSK-lar tərəfindən seçicirlərin qeydiyyatı beynəlxalq yaxşı təcrübəyə uyğun olmamışdır.[30]

*Seçici reyestrinin tamlığını qoruyaraq əhatəliliyi təmin etmək məqsədi ilə dövlət orqanları seçki günü qeydiyatından asılı olmayan alternativ metodları nəzərdən keçirə bilərlər.*

## VII. NAMİZƏDLƏRİN QEYDİYYATI

Prezidentliyə namizəd olmaq hüququ Azərbaycanda ən azı 10 il daimi yaşamış, ali təhsili olan, ikili vətəndaşlığı olmayan və başqa dövlətlər qarşısında heç bir öhdəliklər daşımayan və ya əvvəllər ağır cinayətə görə məhkum olunmamış seçicilərə verilir. Yaşayış yeri və təhsil tələbləri əsassız olaraq məhdudlaşdırıcı təsirə malikdir və beynəlxalq öhdəliklərə və yaxşı təcrübəyə ziddir. [31]

*Beynəlxalq standartlara uyğun olaraq, namizədlik üçün təhsil və yaşayış yeri tələbləri aradan qaldırılmalıdır.*

İddialı şəxsin namizədliyi özü və ya qeydiyyata alınmış siyasi partiyalar (yaxud koalisiyalar) və yaxud seçici qrupları tərəfindən irəli sürülə bilər. Qeydiyyata alınmaq üçün irəli sürülmüş namizədlər qeydiyyatlı seçicilərdən ən azı 40,000 dəstəkləyici imza toplamalı idilər. Təqdim olunmuş imzaları yoxlamaq üçün MSK-nın yeddi gün vaxtı olmuşdu. Müəyyən olunmuş səhvlər etibarlı imzaların sayını tələb olunan saydan azaltdıqda, qanun namizədlərin çatışmazlıqları aradan qaldırmaq imkanını nəzərdə tutmur. Bundan başqa, seçici yalnız bir namizədi dəstəkləmək üçün imza edə bilərdi ki, bu da

---

[28] MSK-dan DTİHB SMM-ə bildirmişlər ki, QÇV-ləri əsasən işlədikləri məntəqələrdə yaşamayan MnSK üzvləri və ya tələbələr tərəfindən istifadə olunur. 33 MnSK-da MSK tərəfindən dərc olunmuş məlumatlara uyğun olaraq, seçki günü 20 yaxud daha çox QÇV istifadə olunmuşdur. Qanunla istifadə olunmamış QÇV-ləri seçki günü açılış prosedurları zamanı ləğv edilməlidir.

[29] Ümumilikdə 556 MnSK seçki günü əlavə siyahılarda 10 yaxud daha çox seçicini qeydiyyata almışdır. Bu MnSK-lardan 220-sində 20 yaxud daha çox seçici qeydiyyata alınmışdır.

[30] 2002-ci il Venesiya Komissiyasının Seçki Məsələlərində Yaxşı Təcrübə Kodeksinin 1.2 (iv) Paraqrafında tövsiyyə olunur ki: "İstənilən halda səsvermə məntəqələrinə seçki günü seçiciləri qeydiyyata almağa icazə verilməməlidir."

[31] VSHBS-in 25-ci Maddəsinə 1996-cı il BMT-nin İnsan Hüquqları Komitəsinin 25 saylı Ümumi Şərhinin 15-ci paraqrafında göstərilir ki, seçkilərdə namizəd olmaq hüququna hər hansı məhdudiyyətlər obyektiv və əsaslı meyarlar ilə əsaslandırılmalıdır və seçkidə namizəd olmağa başqa cür layiq olan şəxslər təhsil yaxud yaşayış yeri kimi əsassız və ya ayrı-seçkilik tələbləri ilə kənarlaşdırılmamalıdır. Həmçinin baxın 2002-ci il Venesiya Komisiyasının Seçki Məsələlərində Yaxşı Təcrübə Kodeksinin I.1.1.c.iv və I.1.1..d.i bölmələri.

siyasi plüralizmin məhdudlaşdırılması kimi görünə bilər.[32] Bu qaydalar ümumilikdə potensial namizədlər üçün əngəl ola bilər.

*Seçicilərin bir neçə namizədin dəstəklənməsində imza etmələrinə icazə vermək üçün Seçki Məcəlləsinə düzəliş olunmalıdır.*

Namizədlərin qeydiyyatı müddəti fevral ayının 8-də başlamış və mart ayının 12-ə kimi davam etmişdir. On beş potensial namizəd irəli sürülmüşdür ki, onlardan da onu dəstəkləyici imzalar təqdim etmişdir. Martın 17-ə kimi MSK hamısı kişi olmaqla səkkiz namizədi qeydə almışdır.[33] MSK iki namizədi qeydiyyata almamış və bildirmişdir ki, onlar kifayət qədər çox sayda təkrarlanan və ya etibarsız imzalar təqdim etmişlər və bu, hər iki halda imza sayının 40,000 etibarlı imzadan az olması ilə nəticələnmişdir.[34] Bu namizədlərdən heç biri MSK-nın qərarından məhkəməyə şikayət etməmiş və DTİHB SMM-ə izah edərək bildirmişlər ki, onlar namizədlərin qeydiyyatı prosesinin dürüstlüyünə, məhkəmə sisteminin müstəqilliyinə və şikayətin məhkəmədə düzgün cavablandırılma ehtimalının olmasına etibar etmirlər.

MSK-dan DTİHB SMM-ə bildirilmişdir ki, Mərkzi Seçki Komissiyası irəli sürülmüş namizədlərə və ya onların nümayəndələrinə qanunla tələb olunan qaydada yoxlama prosesini müşahidə etmək imkanı yaratmışdır. Lakin hər iki qeydiyyata alınmayan namizəd iddia etmişdir ki, onlar özlərinin dəstəkləyici imzalarının yoxlanması prosesini müşahidə etməyə dəvət olunmayıblar.

*Qanunla MSK tərəfindən aşkar olunarsa, dəstəkləyici imzalar ilə əlaqədar çatışmazlıqların aradan qaldırılması üçün müddət nəzərdə tutmalıdır. MSK potensial namizədələrə vaxtaşırı olaraq imza yoxlama prosesi və onun müddəti haqqında məlumat verməlidir.*

Təqdim olunmuş imzaların yoxlanması MSK-nın işçi qrupu (İQ) tərəfindən həyata keçirilmişdir və bu, MSK-nın namizədləri qeydiyyata almaq və ya almamaq ilə bağlı müvafiq qərarları üçün əsas olmuşdur. MSK-dan verilən məlumata görə İQ-a MSK üzvü sədrlik etmişdir, lakin imzaların həqiqi yoxlanması yalnız Daxilir İşlər Nazirliyi ilə Ədliyyə Nazirliyinin nümayəndələri tərəfindən həyata keçirilmişdir.

*MSK dəstəkləyici imzaların yoxlanması prosesini hər hansı hökumət təşkilatlarından müstəqil şəkildə tam öz məsuliyyəti ilə keçirməyi nəzərdən keçirməlidir.*

İQ-nun üzvləri DTİHB SMM-ə bildirmişlər ki, proses imza qeydlərinin, eləcə də şübhəli təkrarlanan imzaların vizual yoxlanmasından ibarət olmuşdur. İQ imza siyahılarındakı qeydləri elektron və axtarış edilə bilən seçici siyahıları ilə yoxlamamışdır, lakin yalnız doğum tarixlərini və şəxsiyyət vəsiqəsi nömrələrinin quruluşca uyğun olub-olmadığını yoxlamışdır. İQ yüzlərlə vərəq üzərində yalnız vizual baxış-yoxlamalar ilə imzaların müqayisə edilməsi prosesinə etibar edir ki, bu da tam və etibarlı hesab

---

[32] 1990-cı il ATƏT-in Kopenhagen Sənədlərinin 3-cü paraqrafında göstərilir ki, iştirakçı Dövlətlər "siyasi təşkilatlar ilə əlaqədar plüralizmin əhəmiyyətini qəbul edir". Paragraph 77 of the 2011-ci il ATƏT/DTİHB və Venesiya Komissiyasının Siyasi Partiyaların Tənzimlənməsinə dair Qaydaları 77-ci paraqrafında tövsiyyə olunur ki, "plüralizm və birləşmə azadlığını gücləndirmək üçün qanunvericilikdə hər hansı vətəndaşın yalnız bir partiyanın dəstəkləyici siyahısını imzalamalı olması kimi tələb olmamalıdır."

[33] Altı namizəd siyasi partiyalar tərəfindən irəli sürülmüş, bir nəfər öz namizədliyini irəli sürmüş, bir nəfər isə seçicilər qrupu tərəfindən irəli sürülmüşdür: İlham Əliyev (Yeni Azərbaycan Partiyası), Araz Əlizadə (Sosial Demokrat Partiyası), Fərəc Quliyev (Milli Dirçəliş Hərəkatı Partiyası), Hafiz Hacıyev (Müasir Müsavat Partiyası), Qüdrət Həsənquliyev (Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası), Sərdar (Cəlaloğlu) Məmmədov (Demokrat Partiyası), Razi Nurullayev (Cəbhəçilərin Təşəbbüs Qrupu), Zahid Oruc (öz namizədliyini irəli sürmüşdür).

[34] Bu iki namizəd Tural Feyruz oğlu Abbaslı və Əli Əliyev olmuşdur.

oluna bilməz. İQ bu prosesin texniki cəhətdən adekvat və izlənə bilən olduğunu aydın şəkildə göstərə bilməmişdir.[35]

İQ tərəfindən verilmiş və DTİHB SMM tərəfindən təhlil edilmiş məlumatlarda namizəd olmaq hüququ ilə bağlı ATƏT öhdəliklərinin qanunla lazımi səviyyədə qorunmasına və təcrübədə tətbiq edilməsinə dair şübhələr vardır.[36] Bundan əlavə, AİHM son məhkəmə işlərində namizədlərin qeydiyyatı üzrə hüquqi çərçivənin və onun tətbiq olunmasının nöqsanlı olduğunu və Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsi, 1 saylı Protokolla ziddiyyət təşkil etdiyini müəyyən edib.[37]

*Dəstəkləyici imzaların yoxlanması və belə yoxlamaların nəticələrinin qeydə alınması üçün aydın və təfsilatlı meyarlar paketi işlənib hazırlanmalıdır ki, proses dəqiq, hesabatlı olsun və şərhə ehtiyac qalmasın. Namizədləri qəbul etmək və rədd etmək haqqında qərarlar yaxşı əsaslandırılmalı və sübut olunmalıdır.*

## VIII. SEÇKİ KAMPANİYASI

Seçki kampaniyası müddəti mart ayının 19-dan başlamış və seçki günü səsvermənin başlanmasından 24 saat əvvələ qədər davam etməklə 22 gün olmuşdur. MSK təşviqat kampaniyalarının keçirilməsi üçün bütün ölkə ərazisində 168 qapalı və açıq məkan ayırmışdır.[38] Namizədlərin bu yerlərdə görüş keçirilməsi tələbi yerinə yetirilmişdir. Dövlət orqanları qabaqcadan təsdiq olunmuş yerlərin sadəcə bu siyahıdakılar olduğunu bildirmişdir ki, bu da vətəndaşların toplaşma azadlığını məhdudlaşdırmışdır. Siyasi rəqiblərin rəsmi kampaniya müddətindən kənar ictimai görüşlər təşkil etmək imkanını məhdud olduğunu nəzərə alaraq, qanunun bu şəkildə şərh olunması bir daha onların seçiciləri prosesə tam cəlb etmə imkanını məhdudlaşdırmışdır. Həmçinin hüquqi tələblərdə olan ziddiyyətlər namizədlər arasında hansı prosedurların tətbiq olunması mövzusunda çaşqınlığa səbəb olmuşdur.[39]

*İctimai toplantıların keçirilməsi ilə bağlı bildiriş və ya ərizənin verilməsinə dair Seçki Məcəlləsi ilə Toplaşma Azadlığı haqqında Qanun arasında ziddiyyətlər aradan qaldırılmalıdır. Namizədlərdən icazə üçün müraciət etmək yox, icra qurumlarına sadəcə toplaşmaq niyyətlərini bildirmək tələb olunmalıdır.*

Seçki kampaniyası məhdud ictimai maraq doğurmuşdur. DTİHB SMM ümumilikdə 51 kampaniya tədbirini müşahidə etmişdir ki, bunların da 40-ı YAP tərəfindən, 11-i isə digər yeddi namizəd tərəfindən təşkil olunmuşdur. YAP vəzifədə olan prezidentin adından yaxşı təşkil olunmuş və yaxşı maliyyələşdirilmiş kampaniya keçirmişdir, onun kampaniya tədbirləri mətbuat orqanları tərəfindən geniş işıqlandırılmışdır. Aparıcı partiya funksionerləri ölkə boyu səyahətlər edərək öz namizədlərini təbliğ etmiş, prezidentin dövlət başçısı kimi əvvəlki nailiyyələrini, regional təhlükəsizliyin və

---

[35] İQ DTİHB SMM-ə bildirilmişdir ki, işçi qrupu heç bir computer əsaslı yardımdan istifadə etməmişdir; o, hər hansı təkrarlanmaların olmasına əmin olmaq üçün hər hansı namizədlərin xeyrinə dəstəkləyici imza etmiş şəxslərin siyahısını tutmamışdır; işçi qrupu hansı imzaların və hansı səbəbdən etibarsız hesab olunması ilə bağlı qeyd aparmamışdır.

[36] 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 7.5-ci paraqrafında "vətəndaşların fərdi qaydada yaxud siyasi partiya və ya təşkilatların nümayəndələri kimi heç bir ayrı-seçkilik olmadan siyasi və ya dövlət vəzifəsi tutmaq hüququna hörmət etmək" iştirakçı Dövlətlər qarşısında öhdəlik olaraq qoyulur.

[37] Baxın, məsələn, *Tahirov v. Azərbaycan*, Ərizə No. 31953/11 (ECtHR, 11 iyun 2015), paraqraflar 53 - 72 və *Ənnağı Hacıbəyli v. Azərbaycan*, Ərizə No. 2204/11 (ECtHR, 22 oktyabr 2015), paraqraflar 50 - 55.

[38] MSK-dan DTİHB SMM-ə bildirilmişdir ki, bir MSK iclası zamanı MSK sədri tərəfindən verilmiş məlumata görə, siyasi partiyalar və namizədlər heç bir icazə tələb olunmadan başqa yerlərdə seçicilər ilə görüşməkdə azad olacaqlar. DTİHB SMM bu mövqeni təsdiq edən hər hansı MSK sənədinin olduğunu müəyyən edə bilməmişdir. MSK-nın iclas protokolları ictimaiyyətə təqdim olunmamışdır yaxud DTHİB SMM-ə verilməmişdir.

[39] Toplaşma Azadlığı haqqında Qanunun 5-ci Maddəsində qeyd olunur ki, ictimai toplaşma tədbirinin təşkilatçısı səlahiyətli dövlət orqanlarına məlumat verməlidirlər, Seçki Məcəlləsinin 86.2-ci Maddəsi seçicilər ilə görüşlərin keçirilməsi üçün ərizə təqdim olunmasını tələb edir.

güclənmiş iqtisadi və sosial inkişafın əhəmiyyətini işıqlandırmışlar. Vəzifədə olan prezidentin özü kampaniyada iştirak etməmişdir, yaxud seçki ilə əlaqədar heç bir xüsusi çıxış etməmişdir.[40] Digər yeddi prezidentliyə namizəd DTİHB SMM-ə bildirmişdir ki, vəsait çatışmazlığına görə onlar əsasən qapı-qapı kampaniyasından və sosial mediadan istifadə etməyi planlaşdırmışlar. Mövcud olduqda, bu namizədlərin regional kampaniya strukturları YAP ilə müqayisədə həqiqətən demək olar ki, inkişaf etməmişdir. DTİHB SMM həmçinin bu namizədlərin kampaniya tədbirlərinin vəzifədə olan prezidentin kampaniyasından miqyas baxımından müqayisəolunmaz dərəcədə kiçik olduğunu müşahidə etmişdir.

YAP kampaniyasında inzibati resursların sui-istifadəsi ilə bağlı davamlı iddialar prosesə inamı zəiflətməyə xidmət etmişdir. 18 halda DTİHB SMM YAP strukturlarının inzibati resurslardan sui-istifadə etdiyini , yüksək vəzifə tutan rəhbər dövlət məmurlarının tədbirlərdə çıxış etdiyini və ilk sıralarda oturduğunu, eləcə də dövlətə məxsus avtomobillərin partiya funksionerlərinin tədbirlərə aparılıb-gətirilməsi üçün istifadə olunduğunu və bütün bunlar iş saatlarında baş verdiyini müşahidə etmişdir. Müşahidələrin aparıldığı müddət ərzində prezident öz rəsmi vəzifələrini icra etməyə davam etmiş, ölkə boyu çoxlu səfərlər etmiş və həmçinin çox sayda yüksək səviyyəli beynəlxalq nümayəndələri qəbul etmişdir. DTİHB SMM qeyd etmişdir ki, yanvar ayından mart ayının əvvəlinə kimi prezident bir çox dövlət sektoru işçiləri üçün əmək haqlarının, pensiyaların, təqaüdlərin və digər sosial ödənişlərin 10 faiz artırılmasına dair 21 fərman imzalamışdır.

DTİHB SMM YAP tərəfindən təşkil olunmuş 16 mitinqi müşahidə etmişdir ki, burada da dövlət sektorunda çalışan əməkdaşların tədbirdə məcburi iştirakı qeydə alınmışdır. Aprel ayının 5-də Mingəçevir şəhərində YAP yürüşündə iştirak edən insanlar bildirmişlər ki, onlara müdirləri tərəfindən tədbirdə iştirak etmək göstərişi verilmişdir. [41] Aprelin 8-də DTİHB SMM YAP tərəfindən Lənkəranda keçirilmiş kampaniya tədbirində iştirak etməyə insanların məcbur edildiyini müşahidə etmişdir, bir neçə müəllim bildirmişdir ki, onlar həmin tədbirə qatılmalı idilər, çünki əks halda onlar nəticələrə qatlaşmalı olacaqdırlar. Hakim partiya tərəfindən inzibati resurslardan sui-istifadə halları 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 5.4-cü paraqrafına uyğun deyildir.[42]

DTİHB SMM YAP tədbirlərində iştirak edən insanların tədbirdən getmələrinin qarşısının partiya funksionerləri tərəfindən yaxud polis tərəfindən məcburi alındığı yeddi məqamı müşahidə etmişdir. Mart ayının 19-da Bakıda keçirilmiş YAP-ın açılış kampaniyası tədbirinin müşahidəsi zamanı çıxışa yaxınlaşanda DTİHB SMM müşahidəçiləri görmüşlər ki, qapı bağlanmışdır və onu açmaq üçün YAP nəzarətçisinin yardımı tələb olunmuşdur. 28 mart tarixində Bakıda təşkil olunmuş bir mitinqdə iştirakçıların əksəriyyəti çıxışların sonunda tədbiri tərk etməyə cəhd etsələr də, təhlükəsizlik əməkdaşlarının və YAP funksionerlərinin qapıları bağladığını və onların öz yerlərinə qayıtmalarını əmr etmələri müşahidə olunmuşdur.[43] Bundan başqa, aprel ayının 3-də YAP tərəfindən Cəlilabadda keçirilmiş mitinqdə polis iştirakçıların tədbiri tərk etməsinin qarşısını almış və bir nəfərə qarşı fiziki güc tətbiq etmişdir. Belə hadisələr seçki kampaniyasının 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 7.7-ci paraqrafında tələb olunan qaydada "heç bir inzibati tədbir, zorakılıq yaxud təhdidin partiyaları və namizədlərin öz mövqe və fikirlərini azad şəkildə təqdim etmələrinin qadağan olunmadığı və ya seçicilərin onları öyrənmələrinin və müzakirə etmələrinin yaxud heç bir cəza qorxusu olmadan öz

---

[40] Vəzifədə olan prezident DTİHB SMM-ə bildirmişdir ki, rəqiblərini əlverişsiz vəziyyətdə qoymamaq üçün təşviqat kampaniyası aparmır və həmçinin 15 illik vəzifə müddətindən sonra onun fəaliyyəti hamıya yaxşı məlumdur.

[41] O cümlədən rəhbərləri tərəfindən xəstəxanalardan işçi heyət, eləcə də müəllimlərinin rəhbərliyi altında çox sayda universitet tələbələri. Tuzim kollecində dərslər dayandırılmış və müəllimlər və tələblər tədbirdə iştirak etməyə məcbur edilmişdirlər.

[42] 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 5.4-cü paraqrafında qeyd olunur ki, "Dövlət və siyasi partiyalar arasında aydın fərq olmalıdır; xüsusən, siyasi partiyalar Dövlət ilə birləşməməlidir".

[43] Qadınlar qrupu DTİHB SMM müşahidəçilərinə bildirmişlər ki, onların tədbirin keçirildiyi yerə qayıtmaları əmr olunmuşdur.

səslərini verməlarinin qarşısının alınmadığı bir ədalətli və azad mühitdə" keçirilib-keçirilməməsi ilə bağlı narahatlıqlar yaradır.

*Səlahiyyətli orqanlar seçki kampaniyalarının təhdid və cəza qorxusunun olmadığı bir mühitdə keçirilməsini təmin etməlidir. Səlahiyyətli orqanlar və siyasi partiyalar dövlət sektorunda çalışan əməkdaşları, kampaniya fəallarını və başqalarını kampaniya tədbirlərində iştirak etməyə məcbur etməkdən çəkinməlidirlər.*

Digər yeddi namizədin hökumətin işini tənqid etməsi müşahidə olunsa da, DTİHB SMM hər hansı namizədin açıq şəkildə prezidenti tənqid etidiyi hallarla qarşılaşmamışdır.[44] Əksinə, DTİHB SMM namizədlərin açıq-aydın vəzifədə olan prezidenti dəstəklədikləri bir çox halların baş verdiyini müşahidə etmişdir.[45] Ümumiyyətlə, seçkilərdə namizədlər arasında bir-birinə həqiqətən əks olan heç bir ciddi rəqib mövqeyi olmamışdır.

10 və 31 mart tarixlərində DTİHB SMM növbədənkənar president seçkisinin keçirilməsinə qarşı Demokratik Qüvvələrin Milli Şurası tərəfindən Bakıda təşkil olunmuş iki müxalifət mitiniqini müşahidə etmişdir.[46] Bu etirazlardan əvvəl AXCP-dən bildirilmişdir ki, partiyanın çox sayda üzvü polis tərəfindən sorğu-sual olunaraq və ya bir çox hallarda 30 günə qədər saxlanaraq işgəncəyə məruz qalıb. AXCP həmçinin iddia etmişdir ki, bəzi partiya üzvləri partiyanın keçirdiyi mitinqlərdə iştirak etmələrinə görə öz vəzifələrindən azad olunublar. Daxili İşlər Nazirliyindən DTİHB SMM-ə bildirilmişdir ki, bu iddialar həqiqətə uyğun deyildir. Hər iki hal siyasi partiyaların azad və açıq şəkildə kampaniya keçirmək imkanının olmasına, eləcə də vətəndaşların dövlət tərəfindən cəza qorxusu olmadan siyasi fəaliyyətlə məşğul olmaq imkanın olmasına ciddi şübhələr yaradır ki, bu da Avropa İnsan Hüquqları Konvensiyasının 10 və 11-ci Maddələrinə və 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 7.7-ci paraqrafına ziddir.[47]

DTİHB SMM birbaşa gender məsələlərini cavablandıran konkret kampaniya platformasının olmadığını müşahidə etmişdir. Ümumiyyətlə qadınlara hələ də həyat yoldaşı və analar kimi başa düşülən "ənənəvi" vəzifələr olaraq baxılır. DTİHB SMM həmçinin müşahidə etmişdir ki, qadınlar həm partiya rəsmiləri, həm də kampaniya çərçivəsində mitinqlərin iştirakçıları olaraq kampaniyada aşağı səviyyədə təmsil olunur.

2009-cu il əhalinin milli siyahıya alınmasının nəticələrinə görə milli azlıqlar əhalinin təxminən doqquz faiz hissəsini təşkil etməsinə baxmayaraq, milli azlıq məsələləri kampaniya zamanı qabarıq nəzərə çarpmamışdır. DTİHB SMM azlıqlar əleyhinə heç bir çıxışın olduğunu müşahidə etməmişdir.

## IX. KAMPANİYANIN MALİYYƏLƏŞDİRİLMƏSİ

2010-cu ildə Seçki Məcəlləsinə edilmiş düzəliş kampaniyanın dövlət tərəfindən maliyyələşdirilməsini ləğv etdiyi üçün prezidentliyə namizədlərə öz kampaniyalarını özəl fondlardan və ianələrdən maliyyələşdirməyə icazə verilir. Qanun xarici ölkələrdən və vətəndaşlardan, beynəlxalq təşkilatlardan, dövlət orqanlarından və bələdiyyələrdən, xeyriyyə təşkilatlarından, dini birliklərdən və oxşar donorlardan yardımların alınmasını qadağan edir. DTİHB SMM-in bir çox müsahibi qeyd etmişdir ki,

---

[44] Onların platformaları sosial-iqtisadi inkişaf, korrupsiyaya qarşı mübarizə, prezident səlahiyyətlərinin azaldılması zərurəti və güclü milli müdafiənin saxlanmasının əhəmiyyəti kimi mövzuları əhatə etmişdir.

[45] Prezidentliyə namizəd Zahid Oruc mart ayının 10-da bildirmişdir ki, "xalq İlham Əliyevi sevir… Bu adam bu dövləti illər ərzində böyük təhlükələrdən qoruyub. O, Azərbaycanı müdafiə etmiş və bugünki vəziyyətə gətirib çıxarmışdır." Seçki günü namizəd Hafiz Hacıyev öz müsahibəsində demişdir ki, o, vəzifədə olan prezidentin lehinə səs verib.

[46] Demokratik Qüvvələrin Milli Şurası Azərbaycanın bir çox müxalifət qüvvələrini bir araya gətirən çətir təşkilatdır.

[47] AİHK-nın 10 və 11-ci Maddələrində ifadə, toplaşma və birləşmə azadlıqları uyğun olaraq təmin olunur.

dövlət maliyyələşməsinin olmaması yalnız vəzifədə olan prezidentin istifadə etdiyi mövcud üstünlüyü artırmağa xidmət edir, çünki digər namizədlər öz kampaniyalarını maliyyələşdirmək üçün hər hansı dövlət dəstəyindən faydalana bilmir.

*Daha ədalətli rəqabət şəraitinə nail olmaq üçün kampaniyanın dövlət tərəfindən maliyyələşdirilməsi ilə bağlı müddəalara yenidən baxıla bilər.*

İrəli sürülmüş namizədlər kampaniya maliyyəsinə nəzarət üçün cavabdeh olan MSK tərəfindən müəyyən olunan bankda öz kampaniya əməliyyatları üçün xüsusi hesab açmalıdır. Namizədin kampaniya məqsədləri üçün sərf edə biləcəyi maksimum məbləğ 10 milyon (təxminən 4,79 milyon AVRO) təşkil edir. [48] Yardımların maksimum həddi fiziki şəxslərdən 3,000 AZN, hüquqi şəxslərdən 50,000 AZN, namizədliyi irəli sürən partiya yaxud seçicilər qrupundan 250,000 AZN müəyyən olunub.

Seçkilərdə iştirak edən namizədlər və ya partiyalardan MSK-ya alınmış kampaniya yardımları və özlərinin məsrəfləri haqqında üç maliyyə hesabatı təqdim etmək tələb olunur: qeydiyyat zamanı ilkin hesabat, seçki gününə 20 gün qalmışdan 10 gün qalmışa qədər olan müddətdə aralıq hesabat və yekun nəticələrin dərc olunmasından sonra 10 gün ərzində yekun hesabat.[49] Bütün qeydiyyata alınmış namizədlər bu üç maliyyə hesabatını təqdim etmişdir və bunlar qanunla tələb olunan qaydada MSK-nın vebsaytında yerləşdirilmişdir. [50]

Seçki Məcəlləsi MSK-ya MSK və DSK səviyyəsində yaradılmış Nəzarət-Təftiş Xidməti vasitəsilə kampaniya maliyyəsi ilə əlaqədar bütün məsələlərə nəzarət tmək səlahiyyəti verir. Qanuna uyğun olaraq, bu qruplara hesabatları yoxlamaq və tələb olunarsa, namizədlərdən və ya partiyalardan əlavə məlumatlar tələb etmək tapşırığı verilir. [51] Auditlərin nəticələrini dərc etmək üçün hüquqi tələbin olmaması və müvafiq müddəalara uyğunsuzluq olduqda, sanksiyaların olmaması bu seçkilərdə kampaniyanın maliyyələşməsinin şəffaflıq və hesabatlılıq səviyyəsini məhdudlaşdırmışdır.

*Kampaniya maliyyə hesabatlarının icbari yoxlanmasını və yoxlama nəticələrinin vaxtaşırı olaraq dərc olunmasını tələb etmək üçün qanunvericiliyə düzəliş oluna bilər. Qanunvericilikdə maliyyə hesabatının verilməsi müddəalarına əməl etməməyə görə müvafiq və mütənasib sanksiyalar da işlənib hazırlanmalıdır.*

# X. MEDİA

## A. MEDIA MÜHITI VƏ HÜQUQI ÇƏRÇIVƏ

Bütün ölkəni əhatə edən 11 televiziya kanalı Azərbaycanda əsas siyasi məlumat mənbəyidir. İTV ictimai yayım şirkəti Milli Məclis tərəfindən təyin olunan idarə heyəti tərəfindən idarə olunduğu halda, AzTV dövlət yayım şirkətinin rəhbərliyi birbaşa president tərəfindən təyin olunur. Həm İTV, həm də AzTV dövlət büdcəsindən maliyyələdirilir. Özəl yayım şirkətlərinin sahiblik strukturları şəffaf deyildir və onların

[48] 1 AVRO təxminən 2.08 AZN təşkil edir.
[49] Seçkidə iştirak etməyən qeydiyyata alınmış siyasi partiyalardan MSK-ya yalnız illik maliyyə hesabatlarını təqdim etmək tələb olunur.
[50] Baxın bütün namizədlərin maliyyə hesabatları.
[51] MSK-nın Nəzarət-Təftiş Xidməti üç MSK üzvündən, MSK-nın maliyyə departamentinin rəhbərindən və Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Hesablama Palatası və Mərkəzi Bankın hər birindən bir nümayəndə olmaqla təşkil olunur. DSK-lar səviyyəsində xidmət qrupu müvafiq DSK-lardan 3 üzvdən, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin müvafiq rayon şöbələrinin və müvafiq bankların nümayəndələrindən ibarət olmalıdır.

müstəqilliyini sarsıdan dövlət dəstəyindən faydalanırlar.[52] Bütün yayım şirkətlərinə üzvləri president tərəfindən təyin olunan Milli Televiziya və Radio Şurası tərəfindən nəzarət olunur. Daralan çap mediası bazarının dayanıqlılığı çox zəifdir, qəzetlərdən yalnız biri siyasi mövzuları əhatə edir və rəsmi olaraq dövriyyəsinin 8,000 nüsxə olduğu bildirilmişdir.

DTİHB SMM-in bir çox müsahibi iddia etmişdir ki, bütün özəl yayım şirkətləri və çap mediası birbaşa dövlət təsiri altındadır və vebsaytlar və sosial şəbəkələr alternativ və tənqidi fikirlərin səsləndirilməsi üçün yeganə platformalardır. Lakin onlayn platformaların müstəqilliyi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə qanunla əvvəlcədən məhkəmə qərarı olmadan məzmunlarını əsas tutaraq vebsaytları bloklamaq səlahiyyəti verildikdən sonra məhdudlaşdırılmışdır ki, bu da beynəlxalq öhdəliklərə ziddir.[53] Vebsaytların bloklanması haqqında nazirliyin və ya məhkəmələrin qərarları və bloklanmış vebsaytların siyahısı ictimaiyyətə məlum deyil.

*Vebsaytlara girişi məhdudlaşdırma səlahiyyəti məhkəmələrə aid olmalıdır. Məhkəmə prosesləri ictimaiyyətə açıq olmalıdır və qərarlar və bloklanmış vebsaytların tam siyahısı ictimaiyyətə bildirilməlidir.*

Konstitusiya ilə ifadə azadlığı, mətbuat azadlığı və informasiya əldə etmək hüququ təmin olunur. Bununla belə, diffamasiya və böhtan 2016-cı ildən etibarən onlayn məzmuna da tətbiq olunmaqla cinayət əməlləri hesab olunur və bu cür hərəkətlərə görə üç ilə qədər yaxud əgər hədəf prezidentdirsə, beş ilə qədər azadlıqdan məhrumetmə cəzası vardır.[54] Jurnalistlər və bloqerlər öz peşəkar fəaliyyətlərinə aid olmadığı kimi görünən, və DTİHB SMM müsahibləri tərəfindən tənqidi jurnalistikadan qisas alma kimi qiymətləndirilən əsassız həbs və saxlanmalara məruz qalmışlar.[55] Bir çox media qurumu yüksək-çinli hökumət məmurlarını və onların ailələrini tənqid etməkdən çəkindikləri haqqında DTİHB SMM-ə məlumat vermişdir.

*Diffamasiya və böhtan dekriminalizasiya edilməli və cərimələr tətbiq etməkdənsə, zədələnmiş nüfuzun bərpa olunmasına üstünlük verilməklə onlara proporsional mülki sanksiyalar tətbiq olunmalıdır. Prezident də daxil olmaqla heç kimə diffamasiyaya qarşı əlavə müdafiə hüququ verilməməlidir.*

Seçki Məcəlləsində rəsmi kampaniya müddəti ərzində yayım mediasında pulsuz və ödənişli efir vaxtının ayrılması və çap mediasında yerin təmin olunması qaydaları təmin olunmuşdur. Məcəllədə mediada kampaniya çıxışlar, müsahibələr, mətbuat konfransları, açıq müzakirələr, debatlar, dəyirmi

---

52 2018-ci ilin yanvar ayında president bütün özəl milli yayım şirkətlərinə dəstək olaraq ümumilikdə 3,000,000 AZN vəsait ayırmışdır.

53 DTİHB SMM müşahidə etmişdir ki, gündəlik siyasi məlumatlar dərc edən bir sıra vebsaytlara Bakıda və regionlarda daxil olmaq mümkün olmamışdır. VSHBS-in 19-cu Maddəsinə 2011-ci il 34 saylı Ümumi Şərhin 13-cü paraqrafında qeyd olunur ki, "fikir və ifadə azadlığını və Konvensiyada nəzərdə tutulan digər hüquqlardan istifadəni təmin etmək üçün hər hansı cəmiyyətdə azad, senzurasız və əngəllərdən uzaq […] medianın olması mühüm məsələdir. 43-cü paraqrafda göstərilir ki, "Vebsaytların, bloqların və ya hər hansı digər internet əsaslı informasiya yayma sisteminin işinə hər hansı qadağalar o şərtlər yol verilən olur ki, onlar [ifadə azadlığına] uyğun olsun."

54 2017-ci ilin mart ayında, Facebook bloqeri Mehman Hüseynov diffamasiyaya görə məsuliyyətə cəlb olunaraq iki il müddətinə azadlıqdan məhrum olunmuşdur. ATƏT-in Mətbuat Azadlğı üzrə Nümayəndəsi (MAüN) iştirakçı Dövlətləri "birbaşa pozucu hərəkətlərlə bağlı olmayınca, post yerləşdirmə və birbaşa mesaj vermə kimi sosial media fəaliyyətlərinə görə heç kəsin cəzalandırılmamalı olduğunu tanımağa" çağırıb." ATƏT-in 1636 (2008) saylı Qətnaməsində[1] göstərilir ki, dövlət məmurları tənqid və təhqirindən adi insanlardan daha yüksək səviyyədə qorunmamalıdır […] Tənqidi rəyə görə jurnalistlər həbs olunmamalı yaxud mətbuat orqanları bağlanmamalıdır." VSHBK-nın 19-cu Maddəsinə 2011-ci il 34 saylı Ümumi Şərhin 38-ci paraqrafında qeyd olunur ki "siyasi sahədə dövlət xadimləri və dövlət müəssusələri ilə əlaqədar ictimai debat hallarında azad ifadə ilə bağlı Sazişdə müəyyən edilən dəyər xüsusilə yüksəkdir" və orada tələb olunur ki, "qanunlar yalnız şübhə doğura biləcək şəxsin şəxsiyyəti əsasında bir neçə cərimə müəyyən etməməlidir". Baxın həmçinn həmin sənədin 42 və 47-ci paraqrafları.

55 Baxın həmçinin, məsələn, ATƏT-in MAüN-nin 18 dekabr 2017 və 12 yanvar 2018 –ci il tarixli bəyanatları və BMT-nin İnsan Hüquqları Komitəsinin "Azərbaycanda haqqında dördüncü dövri hesabat üzrə yekun müşahidələri" (16 noyabr 2016), CCPR/C/AZE/CO/4, paraqraf 36.

masa müzakirələri və siyasi reklam və televiziya və radio proqramları formasında müəyyən olunur. Bu təşviqat pulsuz (yalnız dövlət yayım şirkətində) və ya ödənişli (ictimai və özəl yayım şirkətlərində) ola bilər. Seçki kampaniyasını nələrin təşkil etdiyi ilə bağlı geniş tərif özəl yayım şirkətlərində istənilən kampaniya ilə əlaqəli xəbər proqramlarının və tok-şouların ödənişli olmasını tələb etmişdir. Bu, təşviqat müddəti ərzində kampaniya ilə əlaqədar redaksiya məzmununun yayımlanmasının qarşısını almışdır. Dövlət televiziyası olan AzTV qanunla kampaniya ilə əlaqəli heç bir materialı yayımlaya bilməz.Bu televiziya bu məhdudiyyəti öz xəbər buraxılışlarında istənilən kampaniya fəaliyyətinin işiqlandırılmasının qadağan olunması kimi şərh etmişdir.[56]

*Seçiciləri geniş fikirlərlə təmin etmək üçün seçki ilə əlaqəli redaksiya proqramları məhdudlaşdırılmamalıdır və dövlət yayım şirkətinə xəbər verilişlərində seçki kampaniyasını işıqlandırmağa icazə verilməlidir.*

Televiziya və radioda (hər birində doqquz) ümumilikdə 18 bir saatlıq dəyirmi masanın keçirilməsi üçün İctimai Televiziyada (İTV) pulsuz efir vaxtı ayrılmışdır. Bu dəyirmi masalarda yeddi namizəd iştirak etdiyi halda, vəzifədə olan president nümayəndəsi ilə təmsil edilmişdir. . Bu dəyirmi masalar rəqibləri müzakirə platforması ilə təmin etdiyi halda, əsas vaxt seçkiləri boykot etməyə qərar vermiş müxalifət partiyalarının, hərəkatların və ayrı-ayrı şəxslərin tənqid və ittiham olunmasına ayrılmışdır. Bir sıra hallarda namizədlərin əksəriyyəti vəzifədə olan prezidenti tərifləmişdir. Eyni zamanda, onların heç biri prezidenti birbaşa tənqid etməmişdir.

## B. SEÇKI KAMPANIYASININ IŞIQLANDIRILMASI

Click Here to Read Media Monitoring Results

Xəbər verilişlərində kampaniyanın məhdud işıqlandırılması dövlət qurumlarının fəaliyyətlərinin geniş işıqlandırılması ilə kölgədə qalmışdır.[57] Monitorinq aparılmış bütün media qurumları öz xəbər verilişlərinin böyük hissəsini dövlət qurumlarının fəaliyyətinə həsr etmişdir. Əsasən sosial proqramlara vəsaitlərin ayrılması və ya fəxri mükafatların verilməsi haqqında sərəncamların imzalanması yaxud açılış (lent kəsmə) tədbirlərində iştirak kimi mərasim tədbirlərinin geniş əhatə olunması ilə vəzifədə olan prezidentin həmin vəzifədə mətbuatda təbliğinə çox yer ayrılmışdır. Xəbər buraxılışlarında hakimiyyət orqanlarının fəaliyyətinə dair tənqidi fikirlər səsləndirilməmişdir.

Xüsusilə,, rəsmi kampaniya müddəti ərzində dövlət və özəl yayım şirkətləri öz siyasi və seçki ilə əlaqədar xəbər verilişlərinin 48-81 faiz hissəsini hakimiyyət qurumlarının, o cümlədən 26-40 faiz arasında prezidentin fəaliyyətlərinə həsr etmişdir.[58] Hakim YAP xəbər buraxılışlarında 4 – 19 faiz yer almışdır. Bu işıqlandırmanın tonu əsasən müsbət olmuşdur. Bunun əksinə olaraq, bütün digər namizədlər ümumilikdə cəmi 4 – 20 faiz arasında yer almışdır. Bundan əlavə, Seçkiləri boykot etməyə çağıran vətəndaş cəmiyyəti fəallarının və partiya rəhbərlərinin çox aşağı səviyyədə işıqlandırılması bütün monitorinqi aparılmış xəbər verilişlərinə müşahidə edilmişdir. Xəbər verilişlərində namizədlərin işıqlandırılması əsasən ödənişli əsasla olmuşdur, baxmayaraq ki, yayım şirkətləri heç də həmişə ödənişli reklamları reklam olaraq müəyyən etməmişdir.[59] Yalnız YAP-ın yayımlanan reklam buraxılışları olmuşdur. Namizədlər Fərəc Quliyev, Qüdrət Həsənquliyev və Zahid Oruc hər biri Xəzər

---

[56] Bütün kampaniya müddəti ərzində AzTV-də əsas xəbər buraxılışları vaxtında bütün rəqiblərə ümumilikdə 17 saniyə ayrılmışdır. Prezidentin rəsmi tədbirləri təxminən 5 saat olmaqla geniş işıqlandırılmışdır.

[57] Kampaniya müddəti ərzində DTİHB SMM aşağıdakı media orqanlarının monitorinqini həyata keçirmişdir: Televiziya kanalları – İTV, AzTV, ATV, Lider TV, Space və Xəzər TV; qəzetlər – *Azərbaycan*, *Bakinskiy Rabochiy*, *Kaspi* (Azərbaycan redaksiyası), *Xalq Qəzeti*, *Yeni Musavat*. DTİHB SMM www.trend.az və www.turan.az onlayn buraxılışlarının Azərbaycan dili versiyalarında seçki ilə bağlı məlumatları izləmişdir.

[58] Birinci vitse-prezident xəbər buraxılışlarında 3-19 faiz, hökumət 13-17 faiz, president administrasiyası və yerli hökumət orqanları uyğun olaraq 1-5 faiz arasında yer almışdır.

[59] Milli özəl yayım şirkətlərinin əksəriyyəti DTİHB SMM-ə təsdiq edərək bildirmişlər ki, onlar heç bir aydın və davamlı işarə olmadan xəbər buraxılışlarında siyasi reklam yayımladıqları halda, Space TV ödənişli xəbər verilişlərini ® işarəsi ilə işarələmişdir.

TV-də 10 dəqiqəlik ödənişli efir vaxtı almışdır ki, bu da Xəzər TV jurnalisti ilə müsahibələr üçün istifadə edilmişdir.

*Mediadan qanuni və müstəqil tənzimləyici mexanizmlər vasitəsilə vəzifədə olan prezident və hakimiyyət orqanları haqqında balanslı, məlumatlandırıcı və fakt əsaslı üsulla məlumat vermək tələb oluna bilər. Xəbərlərdə və cari proqramlarda ödənişli kampaniya materiallarının yayımlanmasının qadağan olunması da nəzərdən keçirilə bilər.*

Çap və onlayn media qurumları televiziyadan bir qədər fərqli fikirlər təqdim etmişdir. Üç dövlət qəzeti *Azərbaycan, Bakinskiy Raboçiy* və *Xalq Qəzeti* namizədlərə ödənişsiz yer ayırmaq öhdəliyini yerinə yetirmişdir. Lakin bu ödənişsiz yerdən kənarda onlar prezidentə açıq-aydın dəstək nümayiş etdirmişlər. Eyni tendensiya *Kaspi* qəzetində və *trend.az* vebsaytında da müşahidə olunmuşdur. Bu media qurumları öz xəbər buraxılışlarının müvafiq olaraq təxminən 57 və 53 faizini vəzifədə olan prezidentə həsr etmişdir. *Yeni Müsavat* qəzeti əsasən Xarici İşlər Nazirini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasını, Demokrat Partiyasını və YAP-ı hədəf seçməklə hökuməti bir qədər yüngül dərəcədə tənqid etmişdir. Monitorinqi aparılmış bütün qəzetlər seçkilərdə iştiraka qarşı çıxan müxalif partiyaları və vətəndaş cəmiyyəti fəalları haqqında mütəmadi olaraq aşağılayıcı və dövlətə xəyanətdə təqsirləndirən ifadələrdən istifadə etməklə açıq qərəz göstərmişlər.

Bundan fərqli olaraq, *turan.az* saytı kampaniya fəaliyyətlərini əhatə etməkdən çəkindiyi halda, vəzifədə olan prezident haqqında tənqidi xəbərləri təqdim edən və seçkini boykot etməyə çağıran siyasi partiyalar və vətəndaş cəmiyyəti fəallarının bəyanatlarını və fəaliyyətlərini bitərəf olaraq əhatə edən yeganə monitorinqi aparılmış media buraxılışı olmuşdur.

## XI. YERLİ VƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR

Seçki Məcəlləsində yerli və beynəlxalq müşahidəçilər tərəfindən seçki müşahidəçiliyi nəzərdə tutulur. Yerli müşahidəçilər fərdi qaydada və ya namizədlərin, siyasi partiya və qeyri-hökumət təşkilatlarının (QHT-lər) nümayəndələri kimi müşahidəçi qismində qeydiyyatdan keçə bilərlər. Qanunla MSK bütün beynəlxalq müşahidəçiləri, eləcə də hər hansı seçki məntəqəsində müşahidə aparacaq yerli müşahidəçiləri akkreditasiya edir. Bundan əlavə, ayrı-ayrı DSK-lar öz yurisdiksiyaları altında olan səsvermə məntəqələrində müşahidə aparmaq istəyən yerli müşahidəçiləri akkreditasia edir.[60]

MSK-dan verilən məlumata görə 1,968 nəfəri DSK-lar, qalan hissəsi isə MSK tərəfindən olmaqla, ümumilikdə 58,175 yerli müşahidəçi qeydiyyata alınmışdır. Ümumilikdə 4,041 müşahidəçi QHT-lər tərəfindən akkreditasiya edilmişdir, 14,000 nəfər fərdi vətəndaşlar olaraq akkreditasiyadan keçmişdir. MSK həmçinin ümumilikdə 894 beynəlxalq müşahidəçini akkreditasiya etmişdir. Bu, orta hesabla hər seçki məntəqəsinə 10 nəfərdən çox müşahidəçinin düşməsi ilə nəticələnmişdir. MSK Azərbaycan və beynəlxalq təşkilatların akkreditasiya etdiyi müşahidəçilər haqqında təfsilatlı məlumatları dərc etməmişdir və bu da müşahidəçilərin akkreditasiya prosesinin şəffaflığını azaltmışdır.

*Şəffaflığı artırmaq üçün MSK müşahidəçilərin sayı və siyasi partiyalar da daxil olmaqla onları göndərən təşkilatlar haqqında təfərrüatlı məlumarların dərc olunmasını nəzərdən keçirə bilər.*

Namizədlərin səlahiyyətli nümayəndələri qanunla bütün MSK və DSK iclaslarını, o cümlədən seçki

[60] MSK tərəfindən akkreditasiyanın son tarixi seçki gününə qədər on gün, DSK-lar tərəfindən isə beş gündür.

günündən əvvəlki iclasları müşahidə edə bildikləri halda, müşahidəçilər bunun üçün MSK-dan xüsusi icazə almalıdırlar.[61]

DTİHB SMM-in bir çox müsahibi bildirmişdir ki, xarici maliyyələşmə ilə əlaqədar məhdudlaşdırıcı hüquqi müddəalar vətəndaş cəmiyyəti təşkilatlarının öz müşahidəçilərinə təlim keçmək və onları ərazilərə ezam etmək imkanını məhdudlaşdırır. Seçki ilə əlaqədar fəaliyyətlərdə, o cümlədən vətəndaş müşahidəçiliyində əvvəllər fəal olmuş bir sıra QHT-lər DTİHB SMM-ə bildirmişlər ki, onların fəaliyyət imkanları hökumət və seçki administrasiyası tərəfindən yaradılmış əngəllər ilə ciddi surətdə məhdudlaşdırılmışdır. Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) həm Azərbaycanda, həm də xaricdə müstəqil və peşəkar müşahidə aparmaq sahəsində mühüm təcrübəsi vardır, lakin 2008-ci ildən bəri qeydiyyata alınmır və beləliklə də hüquqi statussuz qalır. Ona görə də həmin mərkəzin könüllüləri özləri fərdi qaydada akkreditasiyadan keçməli olmuşdurlar. SMDT-dən DTİHB SMM-ə bildirmişlər ki, onun könüllülərinin bəziləri akkreditasiyadan keçərkən çətinliklərlə üzləşmişlər.[62]

*Yerli müşahidəçi qrupları əsassız məhdudiyyətlər olmadan və tam azad şəraitdə qeydiyyatdan keçə bilməlidirlər. Bu qeyri-hökumət təşkilatlarının qeydiyyat prosesi vətəndaşların belə qrupları yaratmaq imkanlarını artırmalı və müşahidə səylərinə maneə yaratmaq üçün istifadə edilməməlidir.*

## XII. ŞİKAYƏTLƏR VƏ APELYASİYALAR

Seçki Məcəlləsinə görə, seçicilər, namizədlər, siyasi partiyalar və partiya blokları, namizədlərin nümayəndələri və müşahidəçilər tərəfindən şikayətlər verilə bilər. Şikayət seçki hüquqlarını pozan hər hansı qərar və ya hərəkətdən (yaxud hərəkətsizlikdən) verilə bilər. Şikayətlər qərarları, hərəkətləri və ya hərəkətsizlikləri mübahisə doğuran komissiyadan yuxarı seçki komissiyasına verilməlidir. Şikayətçinin daimi və ya müvəqqəti yaşayış yerinə uyğun olaraq, MSK-nın qərarlarından şikayət Apelyasiya Məhkəmələrindən hər hansı birinə verilə bilər.[63] Apelyasiya Məhkəməsinin qərarlarından isə Ali Məhkəməyə şikayət verilə bilər.

Şikayət və ya apelyasiyanın təqdim olunması müddəti pozuntunun baş verdiyi gündən yaxud qərarın qəbul ediliyi yaxud dərc olunduğu gündən və ya şikayətçiyə qərarın bildirildiyi gündən etibarən üç gün təşkil edir. Seçki günündən əvvəl 30 gün ərzində verilən şikayətlər və apelyasiyalar ilə bağlı iki gün ərzində qərar verilməlidir. Seçki günü və ondan sonra təqdim olunan şikayətlər ilə əlaqədar dərhal qərar qəbul edilməlidir. Seçki komissiyalarına təqdim olunan şikayətlərə MSK və DSK nəzdində yaradılan ekspert qrupları tərəfindən baxılmalıdır.[64] Bu ekspert qrupları şikayətlərin əsasını araşdırmalı və müvafiq seçki komissiyasına rəy təqdim etməlidir. Müvafiq seçki komissiyası lazım olarsa, əlavə araşdırmanın aparılması ilə bağlı göstəriş verə bilər.

---

61 Seçki Məcəlləsinin 40.13-cü Maddəsində nəzərdə tutulur ki, MSK püşkatma yolu ilə müəyyənləşdirməklə hər komissiya üçün maksimum on müşahidəçi olmaqla hansı müşahidəçilərin seçki komissiyasının iclaslarında iştirak etmək hüququnun olduğunu qərarlaşdırır. MSK-dan verilən məlumata görə, MSK-nın işini müşahidə etmək üçün yalnız bir YAP müşahidəçisi müraciət edib və akkreditasiya olunub və heç bir yerli müşahidəçi DSK-larda müşahidə aparmaq üçün MSK-ya müraciət etməyib.

62 Qanunla müəyyən olunan qaydada müvafiq DSK-nın hər hansı seçki məntəqəsindən çox yalnız bir xüsusi seçki məntəqəsində SMDT könüllülərinin müşahidə aparmasının DSK-lar tərəfindən qanunsuz olaraq məhdudlaşdırıldığı hallar barədə DTİHB SMM-ə məlumat verilmişdir. DTİHB SMM-ə həmçinin işlədikləri müəssisə rəhbərlərinin təzyiqləri nəticəsində könüllülərin akkreditasia ərizələrindən imtina etdikləri hallar haqqında məlumat verilmişdir.

63 Ölkədə altı Apelyasiya Məhkəməsi vardır: Bakı, Gəncə, Sumqayıt, Şirvan, Şəki və Naxçıvan Muxtar Respublikasında.

64 Ekspert qrupları MSK-da doqquz ekspert və hər DSK-da üç ekspertdən ibarət təşkil olunur. MSK-nın ekspert qrupu ümumilikdə MSK üzvlərindən təşki olunmuşdur. DTİHB SMM müşahidəçiləri bildirmişlər ki, 22 DSK-nın ekspert qrupunda bir kənar üzv olmuşdur.

Seçki günündən əvvəl və ya sonra seçki administrasiyasının heç bir səviyyəsində və ya məhkəmələrdə heç bir rəsmi şikayət qeydə alınmayıb. Rəsmi şikayətlər olmadığı üçün bu seçki ərzində MSK və DSK ekspert qrupu çağrılmamışdır. DTİHB SMM-in bir neçə müsahibi xüsusilə qeyd etmişdir ki, onlar seçki komissiyalarının və məhkəmələrin şikayətlərə qərəzsiz və peşəkarcasına baxacağına inanmadıqları üçün şikayət verməmişdirlər. Bəzi müsahiblər həmçinin bildirmişdir ki, onlar bunun doğuracağı mənfi nəticələrdən qorxurlar. Rəsmi şikayətlərin olmadığını nəzərə alaraq, DTİHB SMM məhkəmə sistemin səmərəliliyini və onun seçki hüquqlarının pozulması hallarına qarşı həqiqətən adekvat və effektiv vasitə olduğunu qiymətləndirə bilməmişdir.

Seçkinin nəticələri seçki günündən 14 gün ərzində Konstitusiya Məhkəməsi tərəfindən elan olunmalıdır. Seçki Məcəlləsi nəticələr bütün MnSK-larının beşdə ikisindən çoxunda ləğv olunmuş olarsa və bu səsvermə məntəqələrində qeydiyata alınmış seçicilərin sayı dairədə qeydiyyata alınmış ümumi seçicilərin 25 faizindən çox olarsa, MSK-ya seçkini ləğv etmək səlahiyyəti verir. Prezident seçkisinin nəticələri həmçinin MSK tərəfindən nəticələrin protokollaşdırmasında nöqsana görə Apelyasiya Məhkəməsinin qərarı ilə ləğv oluna bilər. Əlavə olaraq, MSK və ya müvafiq məhkəmə seçici siyahılarının tərtib olunması, seçki komissiyalarının yaradılması müddəalarının, səsvermə və səslərin sayılması prosedurlarının yaxud seçki nəticələrinin protokollaşdırılması qaydalarının pozulması səbəbindən seçicilərin niyyətini müəyyən etmək mümkün olmadıqda, MnSK-lar və DSK-larda prezident seçkisinin nəticəsini etibarsız elan edə bilər. Bununla belə, belə hallarda nəticələrin ləğv olunması üçün müvafiq prosedurlar və müddətlər qanunvericilikdə müəyyən olunmur.

Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvü olduğu üçün, işlər AİHM-ə təqdim olunmalıdır. AŞPA-nın məlumatına görə icrası tam və ya qismən ləngiməkdə olan Azərbaycanla bağlı 120 hökmdən 28-i birbaşa seçkilər ilə əlaqədardır.[65] Avropa İnsan Hüquqları Konvensiyasının 46.4-cü Maddəsinə uyğun olaraq pozuntu hallarına görə icraatlar hakimiyyət orqanları tərəfindən AİHM-nin *Azərbaycana qarşı İlqar Məmmədovun* işinə dair qərarını icra etməməsinə görə Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən tətbiq olunmuşdur.[66]

## XIII. SEÇKİ GÜNÜ

Seçki günü rəsmi qeydə alınmış heç bir hadisə olmadan sakit mühitdə keçirilmiş olsa da, icbari prosedurlara geniş miqyasda əməl olunmaması, çox sayda ciddi pozuntu halları və şəffaflığın olmaması ilə xarakterizə olunmuşdur. MSK seçici iştirakının 74.5 faiz olduğunu bəyan etmişdir. Komissiya 12 apreldə saat təxminən 02:00 radələrində əksər seçki məntəqələrindən alınmış ətraflı ilkin seçki nəticələrini yerləşdirmişdir ki, bu da seçki nəticələrinin şəffaflığını təmin etmişdir.

### A. Açılış və Səsvermə

BSMM müşahidəçiləri müşahidəsi aparılmış 140 seçki məntəqəsindən 22-də keçirilmiş açılış prosesini mənfi qiymətləndirmişdir. Bu məntəqələrdə bir sıra müəyyən olunmuş prosedurlara əməl olunmamışdır. MnSK-lar alınmış bülletenlərin sayılması və protokollaşdırılması (uyğun olaraq 37 və 49 müşahidə), QÇV-nin sayılması və ləğv olunması (25 müşahidə), seçki qutularının boş olmasının göstərilməsi və onların təhlükəsizlik məqsədi ilə möhürlənməsi (12 müşahidə) və seçki qutusu möhürlərinin seriya nömrələrinin qeydə alınması (34 müşahidə) kimi məcburi prosedurları yerinə yetirməmişdir. Bütün bunlar seçkidə sui-istifadə hallarının qarşını almaq üçün mühüm qabaqlayıcı tədbirlərdir. Heç bir seçki məntəqəsinin gec açıldığı müşahidə olunmamışdır; bununla belə, 13

---

65 Baxın AŞPA-nın "Azərbaycanda demokratik institutların fəaliyyəti" haqqında Qərarı (11 oktyabr 2017), paraqraf 7.

66 İcraatlar haqqında ətraflı məlumatları buradan əldə edə bilərsiniz.

müşahidə zamanı seçki məntəqəsi saat 8:00-dən tez açılmışdır. Açılış tədbirinin müşahidə edildiyi 9 seçki məntəqəsində iştirakçıların hamısı prosesi aydın görə bilməmişdir.

Səsvermə 1,300 müşahidə aparılmış seçki məntəqəsinin 12 faizində mənfi qiymətləndirilmişdir ki, bu da çox yüksək rəqəmdir və ciddi narahatlıq doğurur. Müşahidə aparılmış əksər seçki məntəqəsində proses ümumilikdə normal və qaydasında olsa da, BSMM müşahidəçiləri bildirmişlər ki, MnSK- lar çox vaxt əsas prosedurlara məhəl qoymamış, şəffaflığı təmin etməmiş və müşahidəçilərin işinə əngəl törətmişdir.

BSMM müşahidəçiləri bir çox ciddi pozuntu hallarının olması haqqında məlumat vermişdir. Seçki qutularına qalaq-qalaq və ya səliqəli yığılmış bülletenlər kimi görünən topa halda bülletenlərin atılması faktı müşahidələrin 4 faiz hissəsində qeydə alınmışdır. Bir neçə dəfə səs vermə halları 16 seçki məntəqəsində müşahidə edilmişdir. Müşahidəçilər müşahidə aparılmış məntəqələrin 8 faizində seçici siyahısının eyni səhifəsində gözlə görünən çox sayda oxşar imzaların olduğunu qeyd etmişdir ki, bu da çox yüksək göstəricidir. Müşahidə aparılmış ən azı 15 seçki məntəqəsində BSMM müşahidəçiləri qeyd etmişlər ki, seçici siyahısında imzaların sayına uyğun səs vermiş olan seçicilərin sayı onların müşahidə apardıqları zaman MnSK tərəfindən bildirilmiş iştirak sayının üçdə biri ilə ikidə biri arasında olmuşdur.[67] Bir çox seçki məntəqəsində, BSMM müşahidəçilərinə seçici siyahılarına baxmağa icazə verilməmişdir. DTİHB SMM tərəfindən keçirilmiş seçici iştirakı və səsvermənin nəticələrinin təfsilatlı təhlili mühüm uyğunsuzluqların olduğunu aşkar etmişdir ki, bu da həm rəqəmlərin qurama olduğuna ciddi işarə edir, həm də iştirak haqqında həqiqi hesabatların göndərildiyi və səslərin sayılması prosesinin düzgün keçirildiyi ilə bağlı suallar yaradır.[68]

*Seçki pozuntularından azad bir seçki mühitini təmin etmək üçün seçki günü materialının hərtərəfli və müstəqil araşdırılması keçirilə bilər. Buraya mövcud olduğu yerlərdə veb-kamera qeydlərinin,, imzalanmış seçici siyahılarının və etibarlı və etibarsız seçki bülletenlərinin nəzərdən keçirilməsi daxildir.*

Bir neçə dəfə səs vermə hallarının qarşısını almaq üçün əsas qoruyucu vasitə olan barmağın mürəkkəbə batırılması ilə əlaqədar prosedurlara əsasən əməl edilməmişdir, seçicilərin barmaqlarındakı görünməz mürəkkəb izləri heç də həmişə yoxlanmamışdır (müşahidə aparılmış səsvermə məntəqələrinin 17 faizində) yaxud bülleten almamışdan əvvəl barmaqları mürəkkəblənməmişdir (11 faiz). Müşahidəçilər qeyd etmişlər ki, 42 seçki məntəqəsində yanlış əl yoxlanmış, 52 müşahidə zamanı yoxlamalar birlərəkdən buraxılmışdır. Bir sıra hallarda müşahidəçilər görmüşlər ki, barmağı mürəkkəbə batırma artıq girişdə tətbiq olunmuşdur. Bu vəziyyət nəzəriyyədə səhv seçki məntəqəsinə gələn və başqa məntəqəyə yönləndirilən seçicilərin səs vermələrinin qarşısını almışdır (seçicilərin başqa məntəqələrə göndərilmə halları 101 seçki məntəqəsində müşahidə edilmişdir

*MSK səsvermə prosedurlarının, o cümlədən barmağı mürəkkəbə batırma prosedurlarının və bülleten qutularının bərkidilməsi işinin seçki komissiyaları tərəfindən ciddi, düzgün və vahid şəkildə icra olunmasını təmin etməlidir.*

BSMM müşahidəçiləri səslərin gizliliyi ilə əlaqədar bəzi problemlərin mövcudluğu, o cümlədən heç də bütün seçicilərin bülletenləri gizli işarələməməsi və ya bülleteni qutuya atmamışdan əvvəl onların qatlanmaması kimi hallar haqqında məlumat vermişlər (uyğun olaraq, 5 və 12 faiz).

Müşahidə aparılmış səsvermə məntəqələrinin dörddə üçündən çoxu fiziki əlilliyi olan seçicilərin daxil olması üçün uyğun olmamışdır. BSMM müşahidəçiləri qeyd etmişdir ki, yeni keçidlərin quraşdırıldığı

---

[67] MSK tərəfindən gün ərzində onlayn bildirilmiş iştiraklılıq göstəriciləri bu nəticəni təsdiq edir.

[68] Məsələn, 1, 2, 4, 5 və 6 saylı MnSK-da iştiraklılıq faizi eyni DSK daxilində bütün MnSK-lar üçün demək olar ki, dəqiq eynidir. Bu isə statistika baxımından kəskin fərqlənir.

səsvermə məntəqələrinin dörddə biri əlillər üçün uyğun olmamışdır. 42 faizində isə seçki məntəqəsinin daxili tərtibatı əlilliyi olan seçicilər üçün uyğun olmamışdır.

Partiya və namizəd müşahidəçiləri müşahidə aparılmış səsvermə məntəqələrinnin 88 faiz hissəsində iştirak etdiyi halda, öz namizədliyini irəli sürmüş şəxslərin müşahidəçiləri 72 faiz məntəqədə olmuşdur. Onlar MnSK-ların işinə mane olurdular və partiya müşahidəçiləri çox vaxt kimi təmsil etdiklərini bilmirdilər. BSMM və digər müşahidəçilərin müşahidə zamanı bəzən fəaliyyəti məhdudlaşdırılmışdır (uyğun olaraq, 4 və 8 faiz).

## B. SƏSLƏRİN SAYILMASI

BSMM müşahidəçiləri müşahidə aparılmış 133-dən çox səs sayılması prosesinin yarısından çoxunu əsasən müəyyən olunmuş prosedurlara açıq-aydın əməl olunmaması və ya məqsədyönlü saxtalaşdırmaların aparılması səbəbindən mənfi qiymətləndirmişdir. Daha mühümü isə müşahidə aparılmış MnSK-ların təxminən ikidə biri seçici siyahılarında olan imzaları saymamışdır ki, bu da siyahıda imza etmiş insanların sayı ilə qutudan çıxan bülletenlərin sayı arasında uzlaşmanı qeyri-mümkün etmişdir. BSMM müşahidəçiləri seçki qutusuna topa bülletenlərin atılması ilə bağlı 19, eləcə də seçici siyahılarındakı qeydlərin, nəticələrin və ya protokolların qəsdən saxtalaşdırılması ilə bağlı 17 fakt haqqında məlumat vermişdir.

Sayılma prosesində qanunla müəyyən olunmuş bir çox prosedur mərhələlər çox vaxt buraxılmışdır. Demək olar ki, müşahidə aparılmış MnSK-ların dörddə biri istifadə olunmamış bülletenleri ləğv etməmiş və onların təxminən yarısı seçki qutularının açılmasından əvvəl rəqəmləri protokola daxil etməmişdir – hər iki amil səslərin sayılması zamanı manipulyasiyalara qarşı mühüm zəmanət hesab olunur. Müşahidə aparılmış səs sayılması proseslərinin üçdə ikisindən çoxunda bülletenlərin arxası qanunla müəyyən olunmuş qaydada möhürlənməmişdir.

Bəzi hallarda proses zamanı qutuda olan bülletenlərin ümumi sayından digər namizədlərə verilmiş səslərin sayını çıxmaqla vəzifədə olan prezidentin lehinə verilmiş bülletenlərin sayını müəyyən etmək kimi qısa yollardan istifadə olunmuşdur. Bu, əsas rəqəmlərin uyğun qaydada uzlaşdırılmasını daha da çətinləşdirmişdir. Bəzi səsvermə məntəqələrində müşahidəçilər görmüşlər ki, bir neçə namizədin lehinə nişanlanmış etibarsız bülletenlər etibarsız hesab olunsa da, namizədlərdən birinin xeyrinə yığılmış bülletenlərə daxil edilmişdir. [69]

Nəticələrə dair protokollar çox vaxt müəyyən olunmuş qaydada tamamlanmamış və müşahidə aparılmış seçki məntəqələrinin ikidə birində ictimaiyyətin tanış olması üçün asılmamışdır. BSMM və digər müşahidəçilər müşahidə zamanı məhdudiyyətlərlə üzləşmiş və bəzi hallarda təhdid olunmuşlar. Bəzi səsvermə məntəqələrində səslərin sayılması prosesi sakit tərzdə, heç bir elan olmadan keçirilmişdir. Bir sıra hallarda BSMM müşahidəçiləri görmüşlər ki, nəticələrə dair protokolun tamamlanması səsvermə olan yerə bitişik otaqda icra olunmuşdur.

*Yerli və beynəlxalq müşahidəçilərin bütün seçki prosesinə maneəsiz daxil olmasını, o cümlədən seçki məntəqəsi və tabulyasıia məkanının daxilində səs vermə, səslərin sayılması və tabulyasiyası zamanı bütün prosedurların aydın görünməsini təmin etmək üçün tədbirlər görülməlidir.*

---

69 Etibarsız səslərin sayı aşağı olmuşdur. MSK-dan bildirilmişdir ki, etibasız bülletenlər 0.32 faiz təşkil etmişdir. MSK tərəfindən buraxılan rəsmi nəticələrə görə, 3,411 seçki məntəqəsində heç bir etibarsız bülleten olmamışdır (səsvermə məntəqələrinin ümumi sayının təxminən 64 faizi). 29 faiz seçki məntəqəsində etibarsız bülletenlərin sayı 0 – 1 faiz arasında olmuşdur. 125 DSK-dan 18-də heç bir etibarsız bülletenin olmadığı bildirilmişdir, 23 DSK-da səsvermə məntəqələrinin 90 – 100 faizi arasında etibarsız bülletenlər olmamışdır. Bunun əksinə olaraq, 12 DSK-da hər bir seçki məntəqəsində ən azı bir etibarsız bülletenin olduğu haqqında məlumat verilmişdir.

## C. NƏTİCƏLƏRİN TABULYASİYASI

BSMM müşahidəçiləri müşahidə aparılmış 112 DSK-dan 101-də tabulyasiya prosesini müsbət qiymətləndirmişdir. Bununla belə, onlar qeyd etmişlər ki, səsvermə üçün ayrılmış məkanlar heç də həmişə adekvat olmamışdır (21 məlumat) ki, bu da bir sıra DSK-larda prosesə mənfi təsir edən sıxlığın yaranması ilə nəticələnmişdir (12 məlumat) yaxud bəzi məntəqələrdə prosesin aydın görüntüsü olmamışdır (15 məlumat). Bəzi DSK-lar məlumat daxiletmə sistemində müvəqqəti problemlərin olduğu haqqında məlumat vermişdir ki, bu da ləngimələrə səbəb olmuşdur.

Siyasi partiya və namizəd müşahidəçiləri müşahidə aparılmış cəmi 31 DSK-da olmuşdursa, vətəndaş və ya öz namizədliyini vermiş müşahidəçilər 19 DSK-da iştirak etmişdir. Materialların təhvil verilməsi və nəticələrin tabulyasiyası zamanı müəyyən olunmuş prosedurlar əksər hallarda nəzərə alınmamışdır. 28 DSK-da MnSK-nın nəticələrə dair protokollarında verilən rəqəmlər uzlaşmamışdır və DSK ofislərində protokolları dolduran MnSK-lar haqqında 12 fakt, eləcə də tələb olunan rəsmi DSK qərarı olmadan protokollara düzəliş edən MnSK-lar haqqında 9 fakt mövcud olmuşdur.

# XIV. SEÇKİSONRASI PROSESLƏR

Seçki günündən sonra nə DSK-lara, nə də MSK-ya səs vermə, səslərin sayılması yaxud tabulyasiya proseslərinin keçirilməsi ilə əlaqədar heç bir şikayət daxil olmamışdır. 12 aprelə qədər seçkiləri uduzmuş olan bütün yeddi namizədin hamısı vəzifədə olan prezidenti qələbə münasibətilə təbrik etmişdir.

Aprel ayının 14-də Demokratik Qüvvələrin Milli Şurası Bakıda daha bir etiraz mitinqi təşkil edərək seçki nəticələrini qəbul etmədiklərini bildirmişdir. Onların fikrincə, seçki saxtalaşdırılmışdır və ümumi demokratik mühitdə keçirilməmişdir. AXCP-dən olan funksionerlər DTİHB SMM-ə bildirmişlər ki, çox sayda partiya üzvləri ya dindirilmişlər ya da mitinqdən əvvəlki müddətdə həbs olunmuşdur.

Seçki məsələlərində maraqlı olan bəzi tərəflər məlumat dərc edərək iddia etmişlər ki, iştirak göstəriciləri həqiqətdə olduğundan daha yüksək göstərmək üçün manipulyasiya edilmişdir. Müsbət bir hal kimi, MSK-nın vebsaytında bütün seçki məntəqələri üzrə ətraflı seçki nəticələri dərc edilmişdir.[70] Lakin aprel ayının 15-ə kimi seçki günü ərzində müəyyən vaxtlarda hər seçki məntəqəsində seçici iştirakının təfərrüatlı göstərildiyi səhifə MSK-nın vebsaytından silinmişdir.

*Rəsmi seçki məlumatlarının şəffaflığını təmin etmək üçün MSK öz vebsaytında yerləşdirilən bütün təfsilatlı seçki məlumatlarının ictimai baxışa açıq saxlanmasını təmin etməlidir.*

15 aprel tarixində MSK seçki nəticələrini yekunlaşdırmaq üçün iclas keçirmişdir. MSK-dan DTİHB SMM-ə bildirilmişdir ki, komissiya seçki günü müşahidə olunmuş və sosial mediada yayılımış pozuntu halları səbəbindən yaxud nəticələrə dair protokollar ilə bağlı problemlərə görə dörd seçki məntəqəsində seçkinin nəticələrini ləğv etmişdir.[71] Bununla belə, MSK-nın müvafiq qərarında bu dörd seçki məntəqəsində nəticələrin ləğv olunmasının səbəbləri ilə bağlı ətraflı izahat verilməmişdir.[72]

---

70 Seçki məntəqəsi tərəfindən verilən təfsilatlı seçki nəticələri ilə burada tanış ola bilərsiniz.

71 DSK 57/MnSK 2, DSK 69/MnSK 26, DSK 73/MnSK 10 və DSK 74/MnSK 12. Qeyd olunan birinci iki MnSK həmçinin MSK tərəfindən ləğv olunmuşdur.

72 Baxın seçkilərin yekun nəticələri haqqında MSK-nın qərarı. Bu qərarda seçki nəticələrinin ləğv olunduğu dörd seçki məntəqəsinə istinad olunur.

17 aprel tarixində öz plenar iclası zamanı konstitusiyada müəyyən olunmuş müddətə uyğun olaraq Konstitusiya Məhkəməsi MSK tərəfindən president seçkisinin elan olunmuş yekun nəticələrini təsdiq etmişdir.

18 aprel tarixində Prezident Əliyevin Milli Məclisin fövqaladə plenar yığıncağında andiçmə mərasimi keçirilmişdir. Həmin mərasimdə çıxışı zamanı prezident vurğulayaraq qeyd etmişdir ki, Azərbaycan "siyasi islahatları dərinləşdirib və bütün azadlıqları təmin edib." O, seçkiləri boykot etmiş siyasi partiyaları "anti-milli" adlandıraraq bildirmişdir ki, "bu seçkilər bird daha onu göstərdi ki, belə siyasi qüvvələrin Azərbaycanın siyasi səhnəsində yeri yoxdur.[73]

## XV. TÖVSİYYƏLƏR

Mətn boyu verilən bu tövsiyyələr Azərbaycanda seçkilərin keçirilməsi prosesini daha da gücləndirmək və onları ATƏT qarşısında götürülmüş öhdəliklərə və demokratik seçkilərə dair digər beynəlxalq öhdəlik və standartlara tam uyğunlaşdırılması üçün səylərə dəstək vermək niyyəti ilə təklif olunur. Bu tövsiyyələr DTİHB-nun yerinə yetirilməli olan əvvəlki tövsiyyələri ilə birlikdə nəzərə alınmalıdır. DTİHB seçki prosesini daha da təkmilləşdirməkdə və bu və əvvəlki hesabatlarda verilmiş tövsiyyələri yerinə yetirməkdə Azərbaycanın səlahiyyətli dövlət orqanlarına köməklik göstərməyə hər zaman hazırdır.

### A. PRİORİTET TÖVSİYYƏLƏR

1. Seçki qanunvericiliyini beynəlxalq standartlara və öhdəliklərə uyğunlaşdırmaq, konstitusiya ilə qorunan hüquqları və azadlıqları təmin etmək, boşluqları və ziddiyyətləri aradan qaldırmaq və DTİHB-nun və Venesiya Komissiyasının tövsiyyələrini yerinə yetirmək üçün həqiqi iştirak və məsləhətləşmə prosesi ilə növbəti seçkilərə qədər bu qanunvericiliyə lazımi düzəliş edilməlidir.

2. Seçki komissiyalarının qərəzsizliyini gücləndirmək və onların işinə ictimai inamı artırmaq məqsədilə Seçki Məcəlləsində bütün səviyyələrdə seçki komissiyalarının tərkibini dəyişməklə bağlı düzəlişlər olunmalıdır.

3. Seçici siyahısının yoxlanması və təkmilləşdirilməsi prosesinin bütün prosedur və əməliyyat aspektlərini nizamlayan hərtərəfli təlimatlar hazırlanmalıdır. Dövlət orqanları həmçinin seçici məlumatlarının hökumət tərəfindən saxlanan yaşayış yeri və şəxsiyyət vəsiqəsi üzrə məlumatlara uyğunluğunu nəzərdən keçirə bilər.

4. Beynəlxalq standartlara uyğun olaraq, namizədlik üçün təhsil və yaşayış yeri tələbləri aradan qaldırılmalıdır.

5. İctimai toplaşma tədbirinin keçirilməsi ilə bağlı bildiriş və ya ərizənin verilməsinə dair Seçki Məcəlləsi ilə Toplaşma Azadlığı haqqında Qanun arasında ziddiyyətlər aradan qaldırılmalıdır. Namizədlərdən icazə üçün müraciət etmək yox, sadəcə icra qurumlarına toplaşmaq niyyətlərini bildirmək tələb olunmalıdır.

6. Səlahiyyətli orqanlar seçki kampaniyalarının təhdid və cəza qorxusunun olmadığı bir mühitdə keçirilməsini təmin etməlidir. Səlahiyyətli orqanlar və siyasi partiyalar dövlət sektorunda çalışan əməkdaşları, kampaniya fəallarını və başqalarını kampaniya tədbirlərində iştirak etməyə məcbur etməkdən çəkinməlidirlər.

---

[73] Prezidentin çıxışının tam mətni ilə prezidentin vebsaytından tanış ola bilərsiniz.

7. Vebsaytlara girişi məhdudlaşdırma səlahiyyəti məhkəmələrə aid olmalıdır . Məhkəmə prosesləri ictimaiyyətə açıq olmalıdır və qərarlar və bloklanmış vebsaytların tam siyahısı ictimaiyyətə bildirilməlidir.

8. Diffamasiya və böhtan dekriminalizasiya edilməli və cərimələr tətbiq etməkdənsə, zədələnmiş nüfuzun bərpa olunmasına üstünlük verilməklə onlara proporsional mülki sanksiyalar tətbiq olunmalıdır. Prezident də daxil olmaqla heç kimə diffamasiyaya qarşı əlavə müdafiə hüququ verilməməlidir.

9. Seçki pozuntularından azad bir seçki mühitini təmin etmək üçün seçki günü materialının hərtərəfli və müstəqil araşdırılması keçirilə bilər. Buraya mövcud olduğu yerlərdə veb-kamera qeydlərinin, imzalanmış seçici siyahılarının və etibarlı və etibarsız seçki bülletenlərinin nəzərdən keçirilməsi daxildir.

## B. DİGƏR TÖVSİYYƏLƏR

### Hüquqi Çərçivə

10. Seçkilərin ikinci turu olduqda, prosedurlar və müddətlər, seçki bülletenlərinin təkrar sayılması qaydaları və əsasları və seçki nəticələrinin ləğv olunması üçün prosedurlar və müddətlər müvafiq normativ hüquqi aktlarda təfsilatlı əks olunmalıdır.

### Seçki Administrasiyası

11. Şəffaflığı və hesabatlılığı artırmaq üçün, seçki komissiyaları öz məsuliyyətinə aid olan bütün əsas işləri formal iclaslar zamanı icra etməlidir. Belə iclasların protokollarının və DSK-ların qərarlarının onlayn dərc olunmasını tələb etmək üçün qanunda dəyişiklik olunmalıdır.

12. Seçki komissiyaları səsvermə məntəqələrində quraşdırılan kameraların səslərin gizliliyinə təhlükə yaradan hər hansı maneə yaratmayacaq şəkildə yerləşdirilməsini təmin etməlidir.

13. Seçki komissiyalarının sədrləri və üzvləri vəzifəsində qadınların sayını artırmaq tədbirləri və mexanizmləri nəzərə alınmalıdır.

14. Rəsmi seçki məlumatlarının şəffaflığını təmin etmək üçün MSK öz vebsaytında yerləşdirilən bütün təfsilatlı seçki məlumatlarının ictimai baxışa açıq saxlanmasını təmin etməlidir.

### Seçici Qeydiyyatı

15. Əqli çatışmazlığı olan insanların səsvermə hüquqlarına məhdudiyyətlər götürülməlidir.

16. Seçicilərin qeydiyyatı prosesinin şəffaflığını təkmilləşdirmək üçün seçici siyahısının yoxlanması və yenilənməsi prosesi haqqında təfsilatlı ilkin və yekun məlumatlar dərc olunmalıdır.

17. Seçici reyestrinin tamlığını qoruyaraq əhatəliliyi təmin etmək məqsədi ilə dövlət orqanları seçki günü qeydiyatından asılı olmayan alternativ metodları nəzərdən keçirə bilərlər.

## Namizədlərin Qeydiyyatı

18. Qanunla MSK tərəfindən aşkar olunarsa, dəstəkləyici imzalar ilə əlaqədar çatışmazlıqların aradan qaldırılması üçün müddət nəzərdə tutmalıdır. MSK potensial namizədələrə vaxtaşırı olaraq imza yoxlama prosesi və onun müddəti haqqında məlumat verməlidir.

19. Dəstəkləyici imzaların yoxlanması və belə yoxlamaların nəticələrinin qeydə alınması üçün aydın və təfsilatlı meyarlar paketi işlənib hazırlanmalıdır ki, proses dəqiq, hesabatlı olsun və şərhə ehtiyac qalmasın. Namizədləri qəbul etmək və rədd etmək haqqında qərarlar yaxşı əsaslandırılmalı və sübut olunmalıdır.

20. Seçicilərin bir neçə namizədin dəstəklənməsində imza etmələrinə icazə vermək üçün Seçki Məcəlləsinə düzəliş olunmalıdır.

21. MSK dəstəkləyici imzaların yoxlanması prosesini hər hansı hökumət təşkilatlarından müstəqil şəkildə tam öz məsuliyyəti ilə keçirməyi nəzərdən keçirməlidir.

## Kampaniyanın Maliyyələşdirilməsi

22. Daha ədalətli rəqabət şəraitinə nail olmaq üçün kampaniyanın dövlət tərəfindən maliyyələşdirilməsi ilə bağlı müddəalara yenidən baxıla bilər.

23. Kampaniya maliyyə hesabatlarının məcburi yoxlanmasını və yoxlama nəticələrinin vaxtaşırı olaraq dərc olunmasını tələb etmək üçün qanunvericiliyə düzəliş oluna bilər. Qanunvericilikdə maliyyə hesabatının verilməsi müddəalarına əməl etməməyə görə müvafiq və mütənasib sanksiyalar da işlənib hazırlanmalıdır.

## Media

24. Seçiciləri geniş fikirlərlə təmin etmək üçün seçki ilə əlaqəli redaksiya proqramları məhdudlaşdırılmamalıdır və dövlət yayım şirkətinə xəbər verilişlərində seçki kampaniyasını işıqlandırmağa icazə verilməlidir.

25. Mediadan qanuni və müstəqil tənzimləyici mexanizmlər vasitəsilə vəzifədə olan prezident və hakimiyyət orqanları haqqında balanslı, məlumatlandırıcı və fakt əsaslı üsulla məlumat vermək tələb oluna bilər. Xəbərlərdə və cari proqramlarında ödənişli kampaniya materiallarının yayımlanmasının qadağan olunmasına da baxıla bilər.

## Yerli və Beynəlxalq Müşahidəçilər

26. Yerli müşahidəçi qrupları heç bir lazımsız məhdudiyyətlər olmadan və tam azad şəraitdə qeydiyyatdan keçə bilməlidirlər. Bu qeyri-hökumət təşkilatlarını qeydiyyata almaq prosesi vətəndaşların belə qrupları yaratmaq bacarığını təmin etməli və müşahidə səylərinə maneə yaratmaq üçün istifadə edilməməlidir.

27. Şəffaflığı artırmaq üçün MSK müşahidəçilərin sayı və onları göndərən təşkilatlar, o cümlədən siyasi partiyalar haqqında təfərrüatlı məlumarların dərc olunmasını nəzərdən keçirə bilər.

**Səs vermə, Səslərin sayılması və Protokollaşdırma**

28. MSK səsvermə prosedurlarının, o cümlədən barmağı mürəkkəbə batırma prosedurlarının və seçki qutularının təhlükəsizliyinin seçki komissiyaları tərəfindən ciddi, düzgün və vahid şəkildə icra olunmasını təmin etməlidir.

29. Yerli və beynəlxalq müşahidəçilərin bütün seçki prosesinə maneəsiz daxil olmasını, o cümlədən seçki məntəqəsi və tabulyasiya məkanının daxilində səs vermə, səslərin sayılması və tabulyasiyası zamanı bütün prosedurların aydın görünməsini təmin etmək üçün tədbirlər görülməlidir.

# ƏLAVƏ 1 – YEKUN SEÇKI NƏTICƏLƏRI VƏ SEÇICI IŞTIRAKI[74]

| | **Say** |
|---|---|
| Səsvermə məntəqələrinin ümumi sayı | 5,641 |
| Seçki nəticələrinin etibarsız hesab olunduğu səsvermə məntəqələrinin sayı | 4 |
| Seçicilərin ümu sayı | 5,332,817 |
| Adi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı | 5,293,561 |
| Əlavə seçici siyahılarına daxil edilmiş seçicilərin sayı | 18,452 |
| Qeydiyyatdan çıxma haqqında vəsiqə verilmiş seçicilərin sayı | 20,804 |
| MSK tərəfindən DSK-lara verilmiş bülletenlərin sayı | 5,347,803 |
| Bülleten verilmiş seçicilərin sayı | 3,962,123 |
| Ləğv edilmiş istifadə olunmamış bülletenlərin sayı | 1,383,792 |
| 1) MnSK-lar tərəfindən | 1,312,344 |
| 2) DSK-lar tərəfindən | 71,448 |
| Korlanmış bülletenlərin sayı | 1,888 |
| Bülleten qutularına atılmış bülletenlərin sayı | 3,958,852 |
| Etibasız səslərin sayı | 12,413 |
| *Etibarsız bülletenlərin faiz nisbəti (atılmış bülletenlərin sayı əsasında)* | *0.32%* |
| Etibarlı səslərin sayı | 3,946,439 |
| *Seçici iştirakı (seçicilərin ümumi sayı əsasında faiz nisbəti)* | *74.30%* |

| **Namizəd** | **Alınmış səslərin sayı** | ***Faiz nisbəti*** |
|---|---|---|
| İlham Əliyev | 3,394,898 | *86.02%* |
| Araz Əlizadə | 54,533 | *1.38%* |
| Hafiz Hacıyev | 59,924 | *1.52%* |
| Qüdrət Həsənquliyev | 119,311 | *3.02%* |
| Fərəc Quliyev | 45,967 | *1.17%* |
| Sərdar (Cəlaloğlu) Məmmədov | 119,621 | *3.03%* |
| Razi Nurullayev | 29,229 | *0.74%* |
| Zahid Oruc | 122,956 | *3.12%* |

## Seçici İştirakı haqqında Məlumat (seçki günü ərzində MSK tərəfindən təqdim olunmuşdur)

| **Vaxt** | **Bülleten almış seçicilərin sayı** | **Faiz nisbəti (seçicilərin ümumi sayı əsasında)** |
|---|---|---|
| Saat 10:00 | 994,196 | 18.64% |
| Saat 12:00 | 2,093,343 | 39.25% |
| Saat 15:00 | 3,227,817 | 60.53% |
| Saat 17:00 | 3,716,135 | 69.68% |

[74] Mənbə: MSK-nın nəticələrə dair protokolu.

## ATƏT / DTİHB HAQQINDA

Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) "insan hüquqlarına və əsas azadlıqlara tam hörmət olunmasını təmin etmək, qanun və qaydalara riayət etmək, demokratiyanın prinsiplərini təşviq etmək və (...) demokratik institutlar yaratmaq, onları gücləndirmək və müdafiə etmək, eləcə də bütün cəmiyyətdə tolerantlığı yaymaq" fəaliyyətlərində iştirakçı Dövlətlərə kömək edən ATƏT-in əsas qurumu (1992-ci il Helsinki Sammiti Sənədi) hesab olunur.

DTİHB Varşavada yerləşməklə 1990-cı il Paris Sammitində Azad Seçkilər Bürosu olaraq yaradılmışdır və 1991-ci ilin may ayında fəaliyyətə başlamışdır. Bir il sonra Büronun adı insan hüquqları və demokratikləşdirmə fəaliyyətlərini əhatə edən geniş mandatı əks etdirmək üçün dəyişdirilmişdir. Bu gün Büronun 150-dən çox əməkdaşı var.

DTİHB **seçki müşahidəçiliyi** sahəsində Avropada nüfuzlu aparıcı təşkilatdır. Hər il Büro ATƏT regionunda seçkilərin ATƏT qarşısında götürülmüş öhdəliklərə, demokratik seçkilərə dair digər beyəlxalq öhdəliklər və standartlara və milli qanunvericiliyə uyğun keçirilib-keçirilməməsini qiymətləndirmək üçün minlərlə müşahidəçinin ezam olunmasını əlaqələndirir və təşkil edir. Onun özünəməxsus metodologiyası bütünlükdə seçki prosesinə dərin bir işıq salır. Yardımçı layihələr vasitəsilə DTİHB iştirakçı Dövlətlərə öz seçki qanunvericiliklərini təkmilləşdirməkdə kömək edir.

Büronun **demokratikləşdirmə** fəaliyyətlərinə aşağıdakılar daxildir: hüququn üstünlüyü, qanunvericilik dəstəyi, demokratik idarəetmə, miqrasiya və hərəkət azadlığı və gender bərabərliyi. DTİHB demokratik strukturları inkişaf etdirmək yolları axtarmaqla, illik olaraq bir çox hədəf seçilmiş yardım proqramlarını həyata keçirir.

DTİHB həmçinin iştirakçı Dövlətlərə ATƏT qarşısında götürülmüş öhdəliklərə uyğun olaraq özlərinin **insan hüquqları və əsas azadlıqları** təşviq etmək və müdafiə etmək öhdəliklərini yerinə yetirməkdə kömək edir. Buna əməkdaşlığı gücləndirmək, bacarıq yaratmaq və tematik sahələrədə, o cümlədən terrorizmə qarşı mübarizədə insan hüquqları sahəsində təcrübə vermək üçün müxtəlif partnyor tərəflər ilə işləməklə, insan alverinin qurbanı olmuş insanların hüquqlarının qorunması, insan hüquqlarının öyrənilməsi və öyrədilməsi, insan hüquqlarının monitorinqi və hesabat verme və qadınların hüquqları və təhlükəsizliyi işinin gücləndirilməsi ilə nail olunur.

**Tolerantlıq** və **ayrı-seçkiliyin olmaması** sahəsində DTİHB iştirakçı Dövlətlərə nifrət əsaslı cinayətlərə və rasizim hallarına, ksenofobiyaya, anti-Semitizm və qeyri-tolerantlığın digər formalarına qarşı cavab tədbirlərinin gücləndirilməsində dəstək göstərir. DTİHB-nun tolerantlılıq və ayrı-seçkiliyin olmaması ilə bağlı fəaliyyətləri aşağıdakı sahələri əhatə edir: qanunvericilik, hüquq mühafizə mövzusunda təlim, monitorinq, nifrətin səbəb olduğu cinayət əməllərinə qarşı cavab tədbirlərinin monitorinqi, bu barədə məlumat verilməsi və belə tədbirlərin izlənməsi; eləcə də tolerantlıq, hörmət və qarşılıqlı anlaşmanı təşviq etmək üçün maarifləndirici fəaliyyətlər.

DTİHB **Roma və Sinti** ilə bağlı İştirakçı Dövlətlərə öz siyasətləri üzrə məsləhət verir. Büro Roma və Sinti icmaları arasında bacarıq yaratma və şəbəkələşməni təşviq edir və Roma və Sinti nümayəndələrinin siyasət hazırlayan orqanlarda iştirakını dəstəkləyir.

DTİHB-nun bütün fəaliyətləri ATƏT-in iştirakçı Dövlətləri, ATƏT institutları və sahə əməliyyatları ilə, eləcə də digər beynəlxalq təşkilatlar ilə sıx əlaqələndirmə və əməkdaşlıq şəraitində həyata keçilir.

Daha ətraflı məlumatları DTİHB-nun vebsaytından (www.osce.org/odihr) əldə edə bilərsiniz.